# Qarabağ Azərbaycandır!

Olimpiya dünyası

www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 9 (1456), 13 - 19 oktyabr 2020-ci il

Qəzet 2001-ci ildən çıxır.

## Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib



Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.

AZƏRTAC dövlətimizin başçısının müraciətini təqdim edir.

Prezident İlham Əliyevin xalqa müraciəti

- Əziz həmvətənlər.

Bu gün müzəffər Azərbaycan Ordusu bir neçə yaşayış məntəqəsini işğaldan azad edib. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

İşğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını sizin diqqətinizə çatdırmaq istərdim: Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzlək kəndi, Gorazıllı kəndi, Qışlaq kəndi, Qaracallı kəndi, Əfəndilər kəndi, Süleymanlı kəndi, Sur kəndi.

*(ardı 2-ci səhifədə)*

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib.

Paylaşımda deyilir:

"Ermənistan silahlı qüvvələri Azərbaycanın yaşayış məntəqələrini intensiv atəşə tutmaqda davam edirlər. Bu, humanitar atəşkəs rejiminin, habelə 1949-cu il Cenevrə konvensiyalarının kobud şəkildə pozulması deməkdir.

Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram.

Beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər.

Yerevan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzə son qoymağa çağıran qətnamələrinə etinasızlığı dayandırmalıdır.

## *Birinci vitse-prezident Mehriban Əliyeva: Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram*

Bu gecə saat 2 radələrində Gəncə şəhərinə amansızlığına görə misli görünməmiş zərbə endirilib.

Əldə olan məlumata görə, raket atəşi nəticəsində 9 nəfər (o cümlədən 4 qadın) həlak olub, 34 nəfər yaralanıb, çoxsaylı mülki obyektlərə ciddi ziyan vurulub.

Bizim şəhərlərin və kəndlərin atəşə tutulması demək olar ki, dünən bütün gün ərzində davam edib. Humanitar atəşkəs rejiminin qüvvəyə mindiyi andan ermənilər tərəfindən Azərbaycan Respublikasının bir sıra rayonlarına 548 mərmi atılıb.

Döyüş meydanında məğlub olması ilə barışa bilməyən erməni tərəfi məqsədyönlü şəkildə dinc əhaliyə hücum edir.

Rusiyanın vasitəçiliyi ilə Moskvada əldə edilmiş razılaşmalara açıq-aşkar hörmətsizlik nümayiş etdirən Ermənistan Cənubi Qafqazda nəticələri onun üçün dağıdıcı olacaq müharibənin yeni mərhələsinə təhrik edir.

Əziz həmvətənlər!

Bu gün siz xalqımızın birlik, həmrəylik, şəfqət və qarşılıqlı yardım kimi ən yaxşı xüsusiyyətlərini nümayiş etdirirsiniz. Bu, böyük qürur hissi yaşatmaya bilməz! Həqiqət və ədalət bizim tərəfimizdədir! Biz zəfər çalacağıq! Allah həlak olanlara rəhmət eləsin. Xəsarət alanların tezliklə sağalmasını arzulayıram. Uca Tanrı bizim Ordumuzu, xalqımızı və Vətənimizi qorusun! Qarabağ Azərbaycandır!".

## Milli Olimpiya Komitəsi Silahlı Qüvvələrə Yardım Fonduna vəsait ayırıb

Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) işğal altındakı torpaqlarımızın azad edilməsi, dövlətimizin ərazi bütövlüyü uğrunda mübarizə aparan Ordumuza dəstək məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrə Yardım Fonduna vəsait ayırıb.

MOK-dan bildirilib ki, komitənin əməkdaşları biraylıq əməkhaqlarının yarısını Silahlı Qüvvələrə Yardım Fonduna ianə ediblər. Ölkəmiz üçün çətin və şanlı bir dövrdə istər Azərbaycan əsgər və zabitlərinin göstərdikləri fədakarlıq, istərsə də xalqımızın nümayiş etdirdiyi sarsılmaz birlik, həmrəylik və Vətən sevgisi hər bir vətəndaşımızın milli qürur və iftixar hissini daha da gücləndirib.

## Azərbaycan Ədalətli Oyunlar Komissiyası beynəlxalq təşkilatlara müraciət edib

Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası (AzƏOK) Avropa və Beynəlxalq Ədalətli Oyunlar Hərəkatı, eləcə də bu qurumlara üzv olan Ədalətli Oyunlar komissiyalarına bəyanat ünvanlayıb.

AzƏOK-dan "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, bəyanatda torpaqlarımızı işğal edən Ermənistanın Azərbaycanın mülki əhalisini və infrastrukturunu hədəfə almaqla beynəlxalq hüququn norma və prinsiplərini, xüsusilə beynəlxalq humanitar hüquq və 1949-cu il Cenevrə Konvensiyalarını kobudcasına pozaraq, məqsədyönlü şəkildə törətdiyi növbəti təxribat qətiyyətlə pislənilib. Bildirilib ki, 30 ilə yaxındır Azərbaycan Ermənistanın hərbi təcavüzünə məruz qalır: "1992-ci ilin fevral ayında törədilmiş Xocalı soyqırımı, 2020-ci ilin iyulunda bütün dünyanın COVID-19 pandemiyası ilə mübarizə apardığı bir vaxtda həyata keçirilən Tovuz təxribatı, Ermənistan silahlı qüvvələri tərəfindən mülki şəxslərin hədəfə alınması bu işğalçı siyasətin bariz nümunələridir".

Bəyanatda qeyd olunub ki, Azərbaycan xalqı münaqişənin sülh yolu ilə həllinə, hər iki xalqın dinc, yanaşı yaşamasına tərəfdardır. Lakin bütün cəhdlərə baxmayaraq, Ermənistan tərəfi danışıqlardan boyun qaçırır və müharibə təhlükəsini alovlandırmağa çalışır.

"Azərbaycan Prezidenti İlham Əliyev bəyan edib ki, Ermənistana işğalçılıq siyasətindən əl çəkməsi ilə bağlı dəfələrlə müraciət olunmasına baxmayaraq, buna heç bir məhəl qoyulmayıb.

AzƏOK üzünü Avropa və Beynəlxalq Ədalətli Oyunlar Hərəkatı üzvlərinə tutaraq, Ermənistan dövlətinin işğalçılıq siyasətini dayandırması, işğal edilmiş Azərbaycan ərazilərini dərhal və qeyd-şərtsiz tərk etməsi, Ermənistan hökumətinin beynəlxalq hüququn norma və prinsiplərinə riayət etməsi məsələsində Azərbaycanı ədalət prinsipləri çərçivəsində dəstəkləməyə çağırır", - deyə bəyanatda vurğulanıb.

## Azərbaycanın idman ictimaiyyətindən Orduya dəstək

***Azərbaycan idman ictimaiyyəti, ölkəmizdə fəaliyyət göstərən idman qurumları və federasiyalar aidiyyəti beynəlxalq təşkilatlara və idman qurumlarına bəyanat ünvanlayıb.***

***Azərbaycan Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, bəyanat Ermənistan tərəfinin Azərbaycana qarşı törətdiyi təcavüz aktını, son aylar ərzində düşmən tərəfinin həyata keçirdiyi məqsədyönlü təxribatçı fəaliyyətin durmadan artdığını və Azərbaycan tərəfinin özünümüdafiə hüququ çərçivəsində və mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Ermənistan silahlı qüvvələrinə qarşı müvafiq əks-tədbirlər həyata keçirdiyini özündə əks etdirir. Ümumilikdə 90 təşkilatın imzası ilə hazırlanan sənəd 12 minədək təşkilata göndərilib.***

**Bəyanatda deyilir:**

"Biz Azərbaycan idman ictimaiyyəti adından bəyan edirik ki, beynəlxalq hüquq normaları çərçivəsində tanınan ərazilərimizin bütövlüyü tam bərpa olunmayanadək, işğalçı Ermənistan Respublikasının Silahlı Qüvvələri ölkə ərazimizi tam tərk etməyənədək, bir milyondan çox qaçqın və məcburi köçkün soydaşımız öz doğma torpaqlarına qayıtmayanadək canımız və qanımızla apardığımız haqq mübarizəsində sona qədər dövlətimizin yanındayıq!

Cari ilin iyul ayının 12-dən ölkəmizin Tovuz rayonu ərazisində dövlət sərhədinə fitnəkar düşmən olan separatçı və işğalçı Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən başlayan hücumlar fasilələrlə davam edərək sentyabrın 27-dən Azərbaycanın işğal olunmuş ərazilərindən işğal altında olmayan yaşayış məntəqələrinin və dinc sakinlərin hədəfə alınması, ağır artilleriya və iri çaplı silahlardan atəşə tutulması ilə nəticələndi. Buna baxmayaraq, qüdrətli Azərbaycan Ordusunun rəşadətli hərbçiləri düşmən tərəfin təxribatına tutarlı cavablar verir və əməliyyat şəraitinə tam nəzarət edir. Xalqımız baş verənləri həssaslıqla izləyir, Silahlı Qüvvələrimizə yüksək etimadlarını ifadə edərək, hərbçilərimizin qəhrəmanlıqlarını qürur hissi ilə qarşılayırlar. Ordumuzun uğurlu cavab əməliyyatlarına idmançılarımız da könüllü olaraq qatılmış və torpaqlarımızın bütovlüyü uğrunda gedən Böyük Vətən müharibəsində yüksək əzmlə savaşırlar. Artıq idmançılarımız arasında əzəli və ayrılmaz torpağımız olan Qarabağın azad edilməsi üçün canlarından keçərək şəhid olanlar vardır.

Son günlərdə bir sıra beynəlxalq təşkilatlar və dövlətlər 30 ilə yaxın müddət ərzində ölkə ərazisinin Dağlıq Qarabağ və ətrafındakı 7 rayonu əhatə edən 20 faizə yaxın bir hissəsinin işğal olunduğu, 25 min nəfərdən çox Azərbaycan vətəndaşının həlak olduğu, 1 milyon nəfərdən çox insanın qaçqın və məcburi köçkünə çevrildiyi Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yenidən dondurulması ilə bağlı çıxışlar edirlər. Lakin BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə 4 qətnamə (822, 853, 874 və 884 saylı qətnamələrdə Qarabağ ərazisindən işğalçı Ermənistan Respublikasının Silahlı Qüvvələrinin qeyd-şərtsiz çıxması tələb olunur) qəbul olunduğunu, eyni zamanda 30 ilə yaxındır Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqların heç bir nəticə vermədiyini yada salaraq bildiririk ki, bu münaqişəni dondurmaq əvəzinə yuxarıda qeyd edilən qətnamələrin işğalçı Ermənistan Respublikası tərəfindən qeyd-şərtsiz icra olunması üçün çağırış etmək, 1 milyondan çox qaçqın və məcburi köçkün soydaşımızı öz doğma torpaqlarına qayıtması üçün bəyanat vermək daha ədalətli olardı.

Azərbaycan idman ictimaiyyəti adından bəyan edirik ki, beynəlxalq hüquq normaları çərçivəsində tanınan ərazilərimizin bütövlüyü tam bərpa olunmayanadək, işğalçı Ermənistan Respublikasının Silahlı Qüvvələri ölkə ərazimizi tam tərk etməyənədək, 1 milyondan çox qaçqın və məcburi köçkün soydaşımız öz dogma torpaqlarına qayıtmayanadək canımız və qanımızla apardığı haqq mübarizəsində sona qədər Dövlətimizin yanındayıq!

Bununla bərabər sizi bu haqq yolunda dünya ictimaiyyətini, idman qurumlarını düzgün və qərəzsiz məlumatlandırmağa və işğalçı Ermənistan Respublikasının təcavüzünü pisləməyə çağırırıq"!

Bununla yanaşı, Azərbaycan ordusunun yanında olan, hər an döyüşə hazır olduğunu bildirən Azərbaycan idman ictimaiyyəti adından orduya geyim, tibbi ləvazimatların olduğu 100-dək sovqat da göndərilib.

# Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib

*(əvvəli 1-ci səhifədə)*

Bu kəndlərin və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi tarixi qələbəmizdir. Azərbaycan işğal altında olan torpaqları işğaldan azad edir. Demək olar ki, hər gün cəbhədən xoş xəbərlər gəlir. Hər gün bizim əsgər və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Eyni zamanda, strateji yüksəklikləri götürərək daha əlverişli mövqelərə sahib olurlar. Beləliklə, əməliyyat planı tam icra edilir, əməliyyat planı müasir döyüş prinsiplərinə əsaslanır. Azərbaycan Ordusu həm maddi-texniki təchizat baxımından, eyni zamanda, döyüş hazırlığı baxımından bu gün döyüş meydanında tam üstünlüyə sahib olubdur.

Bu gün aparılan döyüşlərdə düşmənin hərbi texnikası böyük dərəcədə məhv edilmişdir və eyni zamanda, hərbi qənimət götürülmüşdür. Deyə bilərəm ki, sentyabrın 27-dən bu günə qədər bütövlükdə Ermənistan Ordusuna çox böyük zərbə vuruldu. Mən, sadəcə olaraq, Azərbaycan Ordusu tərəfindən məhv edilmiş və hərbi qənimət kimi götürülmüş Ermənistanın hərbi texnikasının siyahısını sizin diqqətinizə çatdırmaq istərdim. Ermənistanın itkiləri ilə əlaqədar məlumat verirəm: 16 komanda məntəqəsi məhv edildi, 196 tank məhv edildi, 38 BM-21, 1 "Uraqan", 10 özüyeriyən artilleriya qurğusu, - onlardan 8-i "Akasiya", 2-si "Qvozdika", - 36 piyadaların döyüş maşını, 24 artilleriya batareyası, 2 RM və ya hava hücumuna qarşı müdafiə vasitəsi, 2 "S-300" kompleksinin buraxıcı qurğusu, 25 OSA zenit-raket kompleksi, 2 KUB zenit-raket kompleksi, 4 "Repelend" radio-texniki manea vasitəsi, 136 top, 56 minaatan, 1 TOS-1A odsaçan sursatı, 2 radiolokasiya stansiyası, 1 "Kalçuqa" anteni.

Qənimət kimi götürülmüş hərbi texnika aşağıdakı kimidir: 18 tank, 4 top, 22 piyadaların döyüş maşını, 12 minaatan, 4 UAZ maşını, 1 ekskavator, 27 "İqla" kompleksi, 1 ZİL maşını, 9 QAZ maşını.

Onu da bildirməliyəm ki, düşmənin əlində Azərbaycan Silahlı Qüvvələrinə məxsus olan bir dənə də hərbi texnika yoxdur. Düşmən öz xalqına nağıllar danışır, yalan danışır. Faktları saxtalaşdırır, öz xalqını aldatmaq istəyir, beynəlxalq aləmi aldatmaq istəyir ki, guya onlar hücuma keçirlər, onlar bizim bəzi mövqelərimizi geri alıblar. Hamısı yalandır. Döyüşlərin obyektiv müşahidə mənzərəsi var və istənilən hərbi mütəxəssis görə bilər ki, bu gün Azərbaycan Ordusu döyüş meydanında qələbə əldə edibdir. Azərbaycan Ordusu öz üstünlüyünü göstərir. Azərbaycan əsgər və zabiti yüksək mənəvi psixoloji keyfiyyətlər göstərir, mənəvi ruh göstərir. Çünki biz öz torpağımızda vuruşuruq, öz torpaqlarımızı azad edirik. Ermənistanın əsgərləri işğalçılardır. Döyüş gedən torpaq onların torpağı deyil. Onlar mövqeləri qoyub qaçırlar. Baxmayaraq ki, 30 il ərzində təmas xətti boyunca və bir neçə xətt üzrə dərin eşelonlanmış müdafiə sistemi qurulub. Mühəndis-istehkam qurğuları qurulub. Onları yarmaq, onları keçmək çox çətindir. Bəzi hallarda bəzi istehkamları keçmək üçün bizə bir neçə gün lazım olur. Eyni zamanda, biz bütün işləri elə aparırıq ki, az itkilər verək. Ona görə bəzi hallarda müxtəlif istiqamətlər üzrə mövqelərimizdə möhkəmlənib, ondan sonra yeni əməliyyat üçün hazırlıq işləri də görürük ki, maksimum nəticə, minimum itki olsun.

Bu gün işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün Azərbaycan əsgərləri bizim işğal edilmiş torpaqlarda ermənilərin qazdıqları səngərlərdə keşik çəkirlər - onlar bizim yox, biz onların səngərlərində, biz onların postlarında, biz onların tanklarında. Qənimət kimi götürülmüş o hərbi texnikadan indi biz istifadə edirik - 18 tank. Onların tankları indi döyüş meydanında onlara qarşı vuruşur. Budur Azərbaycan Ordusunun üstünlüyü, bizim üstünlüyümüz. Bu gün açıq informasiya məkanında, internetdə göstərilir, necə dəqiq, sərrast atəşlərlə düşmənin canlı texnikası məhv edilir.

Düşmən panikadadır, düşmən isterikaya qapılıb. Düşmən ölkənin rəhbərliyi tamamilə özünü itirmiş vəziyyətdədir. Müxtəlif ölkələrə, müxtəlif ölkələrin dövlət-hökumət başçılarına müntəzəm olaraq zəng edir, dəfələrlə, gündə bir neçə dəfə yardım istəyir, imdad diləyir, yalvarır. Onların ayağının altına yıxılır. Özünü alçaldır ki, gəlin, bizi xilas edin. Onların xilasının yeganə yolu budur ki, torpaqlarımızdan çıxsınlar. Biz dəfələrlə bunu demişik, öz xoşunuzla çıxın bizim torpaqlarımızdan. BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirin, yoxsa, peşman olacaqsınız. Hesab edirsiniz ki, Azərbaycan bu vəziyyətlə barışacaq? Barışmayacaq, dəfələrlə demişəm. Hesab edirdiniz ki, Azərbaycan xalqı bu təhqirlərlə barışacaq? Barışmayacaq, dəfələrlə demişəm. Amma bizim torpaqlarımızda oturub, bizim müqəddəs torpağımızı zəhərləyib sonra da bizə qarşı iddia qaldırasan - qudurğanlığın dərəcəsinə baxın. Biz onları yerinə oturtduq. Biz onlara yerlərini göstərdik. Biz onları elə qovuruq ki, onlar bu sprinti heç vaxt yaddan çıxarmayacaqlar.

Bu gün bütün cəbhə boyu döyüşlər gedir. Azərbaycan bütün istiqamətlər üzrə mövqelərini möhkəmləndirir və biz işğalçını, təcavüzkarı sülhə məcbur edirik. Bu əməliyyatın əsas məqsədi də budur. Biz onlara göstərdik ki, döyüş meydanında da, beynəlxalq müstəvidə də, siyasi meydanlarda da biz qalib gəlirik. Onlar bizim gücümüzü gördülər, bizim iradəmizi gördülər. Onlar gördülər ki, dünyada heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Kimə yalvarırsan yalvar, kimin ayağının altına yıxılırsan yıxıl, kimin dabanlarını yalayırsan yala, heç kim bizə təsir edə bilməz! Biz haqq yolundayıq, biz qalib gəlirik, biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!

Amma işğalçıya bəlkə də sonuncu dəfə şans veririk ki, çıxın bizim torpaqlarımızdan. Çıxın, öhdəlik götürün, danışıqlara qayıdın, danışıqların formatına qayıdın. Yoxsa, Ermənistanın baş naziri özünü nə hesab edir? Bizimlə bu tərzdə danışmaqmı olar? İndi biz ona yerini göstərdik. "Qarabağ Ermənistandır" deməklə Qarabağ heç vaxt Ermənistan olmayacaq. İndi görüm necə deyir "Qarabağ Ermənistandır". Səsini belə çıxara bilmir.

İndi məcbur olub onların xarici işlər naziri Moskvaya danışıqlara gəlib. Gəlsin, orada desin "Qarabağ Ermənistandır". Əgər belə bir şey desə, heç bir danışıqlardan söhbət gedə bilməz. Mən bunu demişəm, heç kim bizi məcbur edə bilməz. Deyirdi ki, biz kriminal "Dağlıq Qarabağ respublikası"nın quldur başçısı ilə danışıqlar aparmalıyıq. Biz heç vaxt buna razı ola bilmərik və bu heç vaxt olmayacaq. Ona görə, dünən və srağagün siyasi müstəvidə baş vermiş hadisələr onu göstərir ki, Ermənistan rəhbərliyi nəhayət başından böyük zərbə alandan sonra dərk etməyə başladı ki, o ancaq bizim şərtlərlə oturub duracaq. Biz nə desək, o da olacaq. Şans veririk ki, danışıqlar yolu ilə, sülh yolu ilə torpağımızdan çıxsın. Onsuz da biz torpaqlara qayıdacağıq. Onsuz da biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bütün dünya bunu gördü, o cümlədən Ermənistan bunu gördü. Biz istəyirik ki, qan tökülməsin. Biz istəyirik ki, şəhidlər olmasın. Biz öz torpaqlarımızı istəyirik. Çıxın gedin bizim torpağımızdan, rədd olun bizim torpağımızdan! Gedin öz ölkənizdə yaşayın. Amma biz torpağımızı geri alacağıq. Ona görə bu tarixi şansı onlar qaçırmamalıdır.

Bu gün Moskvada keçiriləcək görüş, hesab edirəm ki, bir çox şeylərə aydınlıq gətirəcək. Onlar baza prinsiplərini qəbul etməlidirlər. Halbuki Paşinyan demişdi ki, o, onları qəbul etmir. Demişdi ki, Azərbaycana bir qarış torpaq verməyəcəyəm. Nə oldu bəs?! Gəl tut o işğal edilmiş torpaqları. Bəs, verməyəcəkdin? Nə oldu verdin? Nə oldu qaçdın? İndi gedirsən onun-bunun dabanını yalaya-yalaya, özünü alçalda-alçalda öz xalqını alçaldırsan. Öz ölkəni sıfıra bərabər etmisən. Demişdi ki, verməyəcəkdi bu torpaqları. Kimdir səndən soruşan, verəcəksən ya verməyəcəksən?! Gəldik götürdük, vəssalam. Götürəcəyik, nə qədər lazımdır, istəsək artıqlaması ilə. Necə ki, iyul ayında götürə bilərdik. Mən bunu demişdim. İyul ayında biz rahatlıqla Ermənistan ərazisinə keçə bilərdik, orada da torpaqları zəbt edə bilərdik. Heç kim bizim qabağımızı ala bilməzdi. Bu döyüşlər onu göstərir. Eləmədik bunu, qoymadım mən. Halbuki bizim hərbçilərimiz artıq hazır idi buna. Qoymadım. Çünki siyasi iradə var. Biz qanunlar çərçivəsində fəaliyyət göstəririk. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verməyəcəyik. Bəs, nə oldu, Paşinyan? Deyirdin ki, "Dağlıq Qarabağ respublikası" o cümlədən işğal edilmiş bütün torpaqları əhatə edir. Bəs, gəl müdafiə et bunları. Niyə qaçırsan Moskvaya? Niyə zəng vurursan, dünya liderlərinin beynini xarab edirsən? Daha kim qaldı ki, zəng etməsin. Kim qaldı ki, zəhləsini tökməsin. Bir məsləhət verərdim ki, bəlkə şamanlara zəng etsin. Onlar ona kömək etsin. Ya da ki, hansısa uzaq adada yaşayan bir qəbilə başçısına zəng etsin, o, onun canını qurtarsın. Necə deyərlər, lətifə personajına çevrilib. Açın, sosial şəbəkələrə baxın, lağa qoyurlar, ələ salırlar, lətifələr qoşurlar. Öz ölkəsini bu qədər rəzil edən, bəlkə də dünya miqyasında ikinci adam olmayıb. Nəyə görə? Çünki gəlib başqasının torpağında oturub, o torpaqdan çıxa bilmir.

Ona görə mən Azərbaycan xalqına üz tutub deyirəm, biz torpaqlarımızı geri alacağıq. Mən xatırlayıram, Dağlıq Qarabağda qanunsuz oturan və oradan çıxarılacaq dəstə başçısı Şuşa şəhərində özünə "andiçmə" mərasimi keçirmişdir. O vaxt bu Azərbaycan cəmiyyətində böyük rezonans yaratdı, yəni, çox böyük təsir etdi. Biz bunu təhqir kimi qəbul etdik - biz hamımız, istisnasız. Yadımdadır, mənə də çağırışlar olmuşdur ki, biz buna imkan verməməliyik, biz oranı bombalamalıyıq, oranı dağıtmalıyıq. Əlbəttə ki, mən buna gedə bilməzdim. Çünki bizim müharibəmiz mülki vətəndaşlarla deyil. Ermənistandan fərqli olaraq, biz mülki vətəndaşlara atəşə tutmuruq. Ancaq biz bunu unutmamışıq. İndi getsin onun and içdiyi mərasimin keçirildiyi binaya baxsın. Nə gündədir o!

Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik. Ona görə də bu gün bizim uğurlu əməliyyatımız böyük nəticələrə gətirib çıxardı. Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm, bütün sahələrdə, o cümlədən hərbi quruculuq sahəsində.

Bir məsələyə də toxunmaq istəyirəm. Azərbaycan xalqı da bunu vasitəçilərdən, bəzi beynəlxalq təşkilatların rəhbərlərindən dəfələrlə eşidib ki, bu münaqişənin hərbi həlli yoxdur. Mən isə demişdim ki, bu tezislə razı deyiləm və mən haqlı çıxdım, mən! Otuz ilə yaxındır danışıqlar aparılır. Bir məsələ yerindən tərpəndi? Bir santimetr torpaq bizə danışıqlar yolu ilə verildi? Təcavüzkarı məcbur etdilərmi ki, bizim torpağımızdan çıxsın, BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirsin? Yox. Bəs, bu məsələ indi necə həll olunur? Bu, hərbi yol deyilmi? Məhz hərbi yolla bu məsələ həll olunur. Hərbi, ondan sonra siyasi. Bu əməliyyat olmasaydı, biz təcavüzkara lazımi zərbələr endirməsəydik, onların dərsini verməsəydik, indi o qaçardımı Moskvaya danışıqlar aparmaq üçün?! Oturacaqdı özündən razı, deyəcəkdi ki, torpaqları vermirik. Biz məcbur etdik onları. Biz onları elə günə saldıq ki, indi gizlənməyə deşik axtarırlar, tapa bilmirlər. Oturublar, siçan kimi ağzına su alıb susurlar. Bəs, hanı sənin hikkən?! Hanı sənin təkəbbürün?! Hanı sənin "qəhrəmanlığın"?! Deyirdin "Qarabağ Ermənistandır". Qarabağ Azərbaycandır. Bunu hamı bilməlidir, o cümlədən bu gün Ermənistanın başında oturanlar da bilməlidir. Mən onlara bir daha deyirəm, əgər Moskva danışıqlarından sonra yenə də saxtakarlıq edəcəklərsə, özləri peşman olacaqlar. Biz torpaqlarımızı geri alacağıq - sülh yolu ilə, ya da ki, müharibə yolu ilə. Birmənalı! Biz istəyirik ki, sülh yolu ilə bunu təşkil edək, sülh yolu ilə bunu alaq. Ermənistana axırıncı şans veririk, axırıncı şans! Heç kimə ümid bağlamasın. Heç kim onlara kömək etməyəcək. Bizim qabağımızda Ermənistan acizdir. Bizim qabağımızda Ermənistan diz çöküb. Bizim şəhidlərimizin ruhu qarşısında biz onları diz çökdürmüşük. Şəhidlərimizin qanı yerdə qalmayıb. Mən dəfələrlə şəhid ailələrinin nümayəndələri ilə, şəhid valideynləri ilə görüşlərdə demişdim ki, biz onların qisasını alacağıq. Bizim şəhidlərimizin qanı yerdə qalmayacaq və qalmır. Biz qan istəmirik. Biz istəyirik torpaqlarımız bizə verilsin. Verilsin, uzatmasınlar məsələni. Status-kvo deyilən məsələ yoxdur, qurtardı getdi. Status-kvo belə olmalıdır, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu, dəyişdirdim! Bax, orada, döyüş meydanında. Yoxdur status-kvo. Təmas xətti, yoxdur təmas xətti. Yarmışıq onu. Onlar 30 il idi ki, qururdular bu təmas xəttini. Özü də o bölgənin relyefi təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də 30 il ərzində orada beton istehkamlar qurulub. Yarıb keçmişik. Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Yoxdur təmas xətti. İndi deyirlər yeni təmas xətti olacaq. Olmayacaq! Biz torpaqlarımızı geri alacağıq. Hansı təmas xəttindən söhbət gedə bilər?! Yoxdur bu, biz dağıtmışıq, biz etmişik, iradə göstərmişik, güc göstərmişik, xalqımızın iradəsinə arxalanmışıq və bu gün qələbə çalırıq. Tarixi qələbə çalırıq! Bu qələbə Azərbaycan xalqının əldə etdiyi qələbələr arasında ən parlaq qələbədir. Gələcəkdə bu qələbələr davam edəcək. Biz torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik! Düşməni ondan sonra da qovacağıq. Mən bilirəm ki, Azərbaycan xalqı mənim bu sözlərimi bəyənibdir. Qovacağıq onları axıra qədər. Bayrağımız işğal edilmiş bütün torpaqlarda qaldırılacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!

# Qarabağ Azərbaycandır!





## Qarabağ idmanı ölkəmizin idman həyatının ayrılmaz hissəsi olub

*XX əsrin 20-ci illərindən başlayaraq, gənclərin və zəhmətkeşlərin kütləvi sağlamlıq və bədən tərbiyəsinə, idmana xüsusi dövlət qayğısı olmuşdur. Həmin illərdə bədən tərbiyəsi və idmanı səmərəli təşkil etmək üçün maddi-texniki baza yaradılmış, bədən tərbiyəsi, kütləvi sağlamlıq və idman işləri geniş təbliğ olunmuşdur. İdmançılarımız keçmiş SSRİ dövründə beynəlxalq yarışlarda iştirak edib layiqli yerləri tutsalar da, bu nailiyyətlər Azərbaycanın deyil, SSRİ dövlətinin ünvanına yazılmışdır. Əlbəttə, bu heç də böyük əzmi, iradəsi, istedadı ilə bütün maneələri keçərək dünya idman tarixinə parlaq səhifələr yazmış idmançılarımızın nailiyyətlərini azaltmamışdır.*

*Azərbaycan dövlətinin diqqət və qayğısı nəticəsində ölkənin hər bir bölgəsində olduğu kimi, bir vaxtlar Qarabağda da idman qurğuları və stadionlar tikilib, istifadəyə verilib. Lakin hazırda həmin idman qurğularının əksəriyyəti işğal altında olan torpaqlarımızın ərazisində bərbad hala salınıb, məhv edilib. Artıq həmin torpaqlar qüdrətli Milli Ordumuz tərəfindən erməni işğalından azad edilir. Bu o deməkdir ki, tezliklə həmin ərazilərdə yeni quruculuq işləri aparılacaq, doğma yurdunu tərk etmiş insanlar öz yurdlarına dönəcək. Görüləcək böyük quruculuq işləri bütün sahələrdə olduğu kimi, idman və bədən təbiyəsində də yan keçməyəcək.*

*«Olimpiya dünyası» qəzeti olaraq Qarabağda olan idman infrastrukturları və Qarabağ idmanı barəsində maraqlı faktları oxucularımıza təqdim edirik.*

Keçmiş SSRİ dövründə başqa respublikalarda olduğu kimi, Azərbaycanda da bədən tərbiyəsi və idman sahəsində də geniş tədbirlər həyata keçirilmişdir. Dövlət bu sahəyə həmişə əsaslı vəsait qoymuş, hər bir rayonun, şəhərin, qəsəbənin, kəndinin, məhəllənin, məktəbin idman qurğuları, stadionları olmuşdur.



Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan çox qaçqını və məcburi köçkünü olan respublikamızın Qarabağda 400-500-ə yaxın idman qurğuları, stadionlar, meydançalar, muzeylər işğalçı erməni cəlladlarının əlinə keçmiş və onlar tərəfindən dağıdılmışdır. Vaxtilə ölkədə bədən tərbiyəsi və idman sahəsinə rəhbərlik edən Bədən Tərbiyəsi Şurası təşkil olunmuşdur. Onun yaradılması Azərbaycanda bədən tərbiyəsi və idmanın daha da inkişaf etməsi üçün böyük əhəmiyyət kəsb edirdi. Azərbaycanda bədən tərbiyəsi üzrə aparılan məşğələlər və ayrı-ayrı idman növləri inkişaf etməyə başlamışdı. Gimnastika, basketbol, ağırlıqqaldırma və başqa idman dərnəkləri fəaliyyət göstərirdi. Bu dövrdə Azərbaycanda "Avtomotor", "Vodnik", "Raçnik", sonralar 1925-ci ildə "Dinamo" idman cəmiyyətləri yaradıldı. Bədən Tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Həmkarlar İttifaqları Təşkilatları bədən tərbiyəsi və idman dərnəklərinə rəhbərliyi gücləndirib, onlara maddi yardım göstərirdi. Respublika Həmkarlar İttifaqının Mərkəzi Şurasının təşəbbüsü ilə bədən tərbiyəsi dərnəklərinə rəhbər hazırlamaq üçün xüsusi kurslar yaradılırdı.

Həmin dövrlərdə ölkəmizdə idmanın və bədən tərbiyəsinin inkişafından danışarkən, Dağlıq Qarabağ Muxtar Vilayətini də nəzərdən qaçırmaq olmaz.

Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yarandığı gündən (7 iyul, 1923-cü il) əhalinin sağlamlığının qorunması işində müsbət dəyişikliklər baş vermişdir. Lakin bu inkişaf daha çox ötən əsrin 50-60-cı illərindən etibarən özünü qabarıq şəkildə göstərdi.

Burada əhalinin sağlamlığının qorunması üçün Azərbaycan hökumətinin qayğısı daim hiss olunmuşdur. Müxtəlif illərdə bu istiqamətdə kifayət qədər vəsait xərclənmişdir.

Respublikada, o cümlədən DQMV-də həmin dövrlərdə böyüməkdə olan nəslin tərbiyəsi və səhhətinin qorunması üçün dövlətin sərf etdiyi vəsait adambaşına 1965-ci ildəki 49,3 rubldan, 1969-cu ildə 54,9 rubla, 1980-ci ildə 62,6 rubla, kadr hazırlanmasına çəkilən xərc isə 11,1 rubldan 15,4 rubla çatmışdır.

Əgər 1969-cu ildə vilayətdə səhiyyə sağlamlıq və bədən tərbiyəsinin inkişafı üçün 4078 min rubl pul ayrılmışdısa, 1970-ci ildə bu vəsait 4942 min rubla, 1973-cü ildə isə bu 4940 min rubla bərabər idi. Beləliklə, 1980-ci ildə təkcə səhiyyə xidməti üçün 780 min rubldan çox vəsait ayrılmışdır ki, bu da doqquzuncu beşilliyin (1971-1975) yekun ilində nəzərdə tutulduğundan xeyli çox idi. Bütün bu tədbirlərin vilayət zəhmətkeşlərinin sağlamlığının qorunmasında böyük əhəmiyyəti olmuşdur.

Azərbaycanın Qarabağ bölgəsində bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının inkişafı və möhkəmləndirilməsində də müsbət dəyişikliklər baş vermişdir. Respublikada, o cümlədən Qarabağda bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi haqqında Azərbaycan KP MK-nın qərarına əsasən Qarabağda bədən tərbiyəsi və idman sakinlərin gündəlik işinə çevrilmişdi.

1950-1960-cı illərdə Dağlıq Qarabağda bədən tərbiyəsi və idmanın inkişafı üçün bədən tərbiyəsi və idman kollektivlərinin yaradılması işi ildən-ilə genişləndirilmişdi.

Məsələn, 1960-cı ildə 12 min 445 idmançını birləşdirən 172-i bədən tərbiyəsi və idman kollektivi var idi. 1965-ci ildə isə 18 min 615 idmançını birləşdirən 210 bədən tərbiyəsi kollektivi, 1970-ci ildə isə 24,896 idmançını əhatə edən 317 bədən tərbiyəsi və idman kollektivi yaradılmışdı.

Bu say 1975-ci ildə 326-ya, 1980-ci ilin sonunda isə 558-ə çatmışdır. Onlardan da 289-u kəndlərə aid idi. Həmin kollektivlərdə təqribən 20 mindən çox idmançı təmsil olunurdu.

Məsələn, 1976-1980-ci illərdə DQMV zəhmətkeşlərinin 20 faizdən çoxu idmanın müxtəlif növləri ilə məşğul olurdular.

1966-1970-ci illərdə Şuşa şəhərində 28, Mardakert (Ağdərə) rayonunda 20, Martuni (Xocavənd) rayonunda 22, Hadrutda 20 idman zalı və meydançası tikilib sakinlərin ixtiyarına verilmişdi.

Vilayətin mərkəzi Xankəndində müasir tələblər səviyyəsində 15 min nəfərlik böyük bir stadion, "Dinamo" idman kompleksi və bir sıra qurğular tikilmişdi. Vilayətdə 12 stadion, 51 idman meydançası, 313 voleybol, basketbol və tennis meydançaları var idi.

DQMV-nə bədən tərbiyəsi və idmanın inkişafı istiqamətində respublika tərəfindən bu sahəyə ayrılan vəsaitin miqdarı getdikcə artmışdır. Əgər 1961-ci ildə dövlət tərəfindən ayrılan vəsait 20,980 min rubl olmuşdusa, bu rəqəm getdikcə artaraq 1965-ci ildə 27,779 min rubl, 1970-ci ildə 34,300 rubl, 1975-ci ildə 48,500 rubl, 1980-ci ildə isə 86,500 rubl olmuşdur. Sonrakı illərdə isə bu məqsəd üçün ayrılan vəsait daha da çoxalmışdır.



1971-ci ildə DQMV-də 32 nəfər idmançı yarışlarda göstərdikləri yüksək nəticələrə görə birinci dərəcəli idmançı, 3550 nəfər idmançı isə göstərdikləri nəticələrdən asılı olaraq II və III dərəcəli idmançı və "gənc idmançı" adına layiq görülmüşlər.

1975-ci ildə vilayətdə 28,552 nəfərdən artıq gənc bədən tərbiyəsi və idmanın müxtəlif növləri ilə məşğul olurdu. 5390 nəfərdən artıq gənc isə müxtəlif idman dərəcəsinə layiq görülmüşdür ki, bunlardan da 59 nəfəri birinci dərəcəli idmançı idi. Onlar rayon, respublika və ümumittifaq idman yarışlarında çıxış edərək, dəfələrlə mükafatalayiq yerlər tutmuşdular. Bundan başqa vilayətdə bir qayda olaraq, bədən tərbiyəsi və idman düşərgələri ixtisaslı mütəxəssislərlə təmin edilmişdir. Belə ki, Azərbaycan hökuməti tərəfindən Dağlıq Qarabağda bədən tərbiyəsi və idmanı inkişaf etdirmək üçün 1960-cı ildə 56, 1970-ci ildə isə 96 ali və orta ixtisas təhsilli bədən tərbiyəsi və idman mütəxəssisi göndərilmişdi.

Təkcə 1980-ci ildə vilayətdə 296 nəfər ali və orta ixtisas təhsilli bədən tərbiyəsi və idman mütəxəssisi var idi. DQMV-də pioner düşərgələrinin, idman tipli düşərgələrinin, habelə əmək və istirahət düşərgələri şəbəkəsinin inkişafına böyük diqqət yetirilmişdir. Bu düşərgələrdə 1979-1980-ci tədris ilinin yay mövsümündə 8400-dən çox şagird iştirak etmiş, idmanın müxtəlif növləri üzrə öz ustalıqlarını bir daha təkmilləşdirmişdilər.

1970-ci ilin yekunlarına əsasən, DQMV ərazisində 43 futbol meydançası, 277-i voleybol, tennis, basketbol meydançaları fəaliyyət göstərirdi. Azərbaycan hökuməti Dağlıq Qarabağda yaradılmış idman mərkəzini idman qurğuları, lazımı avadanlıqlarla təmin edirdi.



# Qarabağ Azərbaycandır!

Bəhmən Cəlil oğlu Rəsulov 1930-cu il yanvarın 9-da Şuşa şəhərinin Qaybalı kəndində anadan olub. Doğulduğu kənddə dördüncü sinifə qədər təhsil alıb. O, dördüncü sinifi bitirdikdən sonra təhsilini Şuşanın Xəlfəli kəndində davam etdirib. Bəhmən Xəlfəli kəndində VII sinfi bitirdikdən sonra sənədlərini Şuşa Pedaqoji Məktəbinin Bədən Tərbiyəsi şöbəsinə verir və 1950-ci ildə bu məktəbdə təhsilini bitirib. O, müxtəlif uşaq evlərində tərbiyəçi-müəllim kimi fəaliyyət göstərib. Bəhmən müəllim 1963-cü ildən etibarən Şuşa 3 saylı orta-internat məktəbində bədən tərbiyəsi müəllimi işləyib.

## Yaddaşlarda qalan güləşçi, yaxud kürəyi yerə dəyməyən “Qarabağ pələngi”

Bəhmən Rəsulovun uşaqlıq illəri həmyaşıdları kimi acınacıqlı olub. Bu barədə yazının qəhrəmanı söhbət zamanı maraqlı xatirələrini bölüşdü. Həmin anları Bəhmən Rəsulov belə xatırlayır: “Böyük Vətən müharibəsi başlandığı vaxt atam Cəlil kişi minlərlə sovet adamı kimi Vətənin müdafiəsinə qalxmışdı. O dövrdə cəbhəyə yollananların ailə üzvləri istehsalat, kolxoz və sovxozlarda öz atalarını, ərlərini, qardaşlarını əvəz edirdi. Mən həmin ərəfədə 13-14 yaşlarında idim. Ailəmə kömək edir və Şuşa pedaqoji məktəbində təhsil alırdım. İdmana da böyük həvəsim var idi. Güləşi sevirdim. Vəziyyət elə gətirdi ki, pedaqoji məktəbin nəzdində fəaliyyət göstərən Azərbaycanda tanınmış güləşçi İsmayıl İsmayılovun təşkil etdiyi güləş idman bölməsinə daxil oldum. Tədricən məşqlərdə İsmayıl müəllimin güləş texnikasına yiyələnirdim. Bir neçə aydan sonra özümü güləş yarışlarında sınamağa başladım. 1952-ci ildə şəhər və vilayət çempionu adını qazandım”.

Bəhmən müəllimlə söhbətdən aydın oldu ki, onun güləşə olan həvəsi tezliklə böyük uğurlara yol açıb. Belə ki, 1952-ci ildə o, DQMV-nin yığma komandasının tərkibində sərbəst güləş üzrə respublika birinciliyində çıxış edib. O, belə bir böyük miqyaslı yarışda ilk dəfə çıxış etməsinə baxmayaraq, yarımağır çəki dərəcəsində bir neçə güclü rəqibinə qalib gəlib.

Bəhmən Rəsulovun ən maraqlı görüşü dəfələrlə Azərbaycan çempionu olmuş, milliyyətcə yunan olan Alkivad Pavlidi ilə olub. “İndiyə qədər yadımdadır. Alkivadla görüşün ilk dəqiqələrindən hücuma keçib, onu çaş-baş saldım. Alkivad bunu gözləmirdi. Onun müdafiə olunmaqdan başqa çarəsi qalmamışdı. Fürsət düşən kimi onu qaldırıb, döşəyə çırpdım. Lakin hakim görüşü saxlamayıb davam etdirməyi tələb etdi. Zaldakı azarkeşlər hakimə irad tutaraq, çığır-bağır salmağa başladılar. Hamı öz narazılığını bildirirdi. Xüsusi ilə də görüşü izləyən “Kəllə” Sabir (Bakıda ali məktəblərin birində təhsil alan tanınmış şuşalı tələbə Sabir Zeynalova el arasında belə müraciət edirdilər. Ona görə ki, o, həm həddindən artıq savadlı idi, həm də dalaşanda güclü kəllə vururdu - Ə.N) hakimlərə çox kobud etiraz etdi. Axırda yarışı keçirən nümayəndələrdən biri Sabirə yaxınlaşıb - dəfələrlə Azərbaycan çempionunu rayondan gəlmiş bir güləşçiyə uduzmasına biz yol verə bilmərik, bu mümkün deyil, - deyib oradan uzaqlaşdı. Bir neçə dəqiqədən sonra görüş heç-heçə olaraq başa çatdı. Amma hamı mənim qalib gəldiyimi israr edirdi. Bununla da yarışda mükafatçılar sırasına düşdüm. Ən böyük uğurum isə tamaşaçılar tərəfindən “Qarabağ pələngi” deyə çağırışlar və alqışlar oldu”, - deyə veteran güləşçi bildirdi.

### “Şuşada və Dağlıq Qarabağda onun kürəyini yerə vuran olmayıb”

Yarışdan sonra Azərbaycanın məşhur güləşçiləri və məşqçiləri bakılı Rza Baxşəliyev, gəncəli İsaq Cəfərov, naxçıvanlı İslam Hümbətov və başqaları Bəhmən Rəsulovu öz şəhərlərinə dəvət edirlər ki, onların güləş komandalarının tərkibində çıxış etsin. Lakin Bəhmən Rəsulovun ailəsi və şərait imkan vermir ki, o, yaxınlarından uzaq düşsün. Hətta Bəhmən Rəsulov Azərbaycanın sərbəst güləş üzrə yığma komandasının tərkibində Leninqradda keçirilən “İskra” İdman İdman Cəmiyyətlərinin SSRİ birinciliyinə belə gedə bilmir.

Şuşa rayon idman komitəsi teleqram almışdı. Ermənistanın yığma güləş komandası Dağlıq Qarabağ Muxtar Vilayətinin yığma güləş komandası ilə yoldaşlıq görüşü keçirməlidirlər. Həmin vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin yığma komandasının baş məşqçisi Əlixan Muradov idi. DQMV-nin İdman Komitəsinin rəhbərliyi yeni dünya çempionu olmuş məşhur Bakı “dinamo”çusu Artyom Teryanı Qarabağa dəvət etmişdilər. Artyom ona yeni hədiyyə edilmiş motosikleti ilə Bakıdan Stepanakertə gəlmişdi. O, Bəhmənin keçirdiyi görüşlərə tamaşa edib, bu idmançını bəyənmişdi. Ona görə də öz-özlüyündə fikirləşirdi ki, Şuşaya gedib Bəhməni də həmin heyətə cəlb etsin. Motosikletinə minib Şuşaya gəlir. Bəhməni peşə məktəbinin idman salonunda tapır və məsələni ona başa salır. Rəhbərlikdən icazə alıb, onu özü ilə Stepanakert şəhərinə gətirir. Bəhmən Rəsulov Artyom Teryanın rəhbərliyi, Əlixan Muradovun (o, milliyyətcə erməni idi - Ə.N.) məşqçiliyi ilə bir neçə gün məşq edir.

“Ermənistan yığma komandasının bütün üzvləri xüsusi avtobusla Stepanakert şəhərinə gəlmişdilər. Daha doğrusu, yoldaşlıq görüşünə hazırlaşırdılar. Onu da qeyd edim ki, onlar gələn kimi həmin avtobusla Şuşaya qalxıb, şəhəri gəzməyə başladılar.

Növbəti gün Stepanakertdə, Maksim Qorki adına teatrın səhnəsində yarış keçirilməli idi. Ermənistan güləş komandasının tərkibində yarımağır çəkidə “Tarzan” ləqəbli Arkadi Movsesyan da yer almışdı. Hamı ona böyük hörmətlə yanaşırdı. O, SSRİ birinciliklərinin iştirakçısı və mükafatçısı, eyni zamanda Ermənistan çempionu idi. Dağlıq Qarabağ komandasının tərkibində Şuşada hərbi hissədə əsgərlik edən rus millətindən olan Vladimir Saxarov da yer almışdı. Onun 110-kq çəkisi var idi. 46-ölçüdə ayaqqabı geyinirdi. Onun çəkisində güləşçi olmadığı üçün o, birbaşa qalib sayıldı. Onu da bildirim ki, Ermənistan erməniləri ilə Qarabağ erməniləri arasında çox soyuq münasibət var idi. Güləş yarışının keçirildiyi salon tamaşaçılarla dolmuşdu. Hətta Dağlıq Qarabağın rəhbər işçiləri də bu yoldaşlıq görüşünə baxmağa gəlmişdilər.

Diktor rus dilində məni güləş döşəyinə dəvət etdi. Mən döşək üzərinə çıxdım və qırmızı ipi sol ayağıma bağladım. Diktor yenə rus dilində Yerevandan gəlmiş “Tarzan” ləqəbli Arkadi Movsesyanı döşəyə dəvət etdi. Salonu gurultulu alqış sədaları bürüdü. O da göy rəngli ipi sol ayağına bağlayıb hakimə yaxınlaşdı. Görüş başlandı. O vaxt güləş yarışları 9 dəqiqədən ibarət idi. Hər hissədə 3 dəqiqədən bir 1 dəqiqəlik fasilə verilirdi. O, mənim qollarımdan tutub özünə tərəf çəkdi, qucaqlayıb yerə vurmaq istədi, ancaq bacarmadı. Onun əlindən çıxıb qabaq hissədən onu qucaqlayıb, başımın üzərinə qaldırıb döşəyə çırparaq, kürəyini yerə vurdum. Görüş heç bir dəqiqə də çəkmədi. Bütün zalda oturanlar ayaq üstə məni alqışladılar. Dağlıq Qarabağın İcraiyyə Komitəsinin sədr müavini gözəl insan Cəmil Bəylərov səhnəyə qalxıb, məni qucaqlayıb öpdü və təbrik etdi. Bundan başqa, Artyom Teryan da məni qucaqlayıb öpdü, yanılmadığını bildirdi və mənimlə şəkillər çəkdirdi. Daglıq Qarabağın qadınlardan ibarət yığma voleybol komandasının baş məşqçisi Roza Petrosyan “Tarzan”a qızıl gül buketi gətirmişdi. O, qalib gələcəyi təqdirdə gülləri ona bağışlayacaqdı. Amma buket ona qismət olmadı. Roza o gülləri “Tarzan”a yox, mənə verəsi oldu. İndi də bu tarixi görüşü yadıma salanda bir az qürrələnir, sevinir və toxtayıram” - deyə, veteran güləşçi həmin anları xatırladı.

Bəhmən Rəsulov bu uzun illər ərzində qazandığı idman nailiyyətlərinə və nəticələrinə görə əziz və doğma şəhəri olan Şuşanın və Dağlıq Qarabağ Muxtar Vilayətinin idman şərəfini layiqincə qorumuşdur. O, bir sıra orden və medallarla, diplomlarla, fəxri fərmanlarla, kuboklarla və qiymətli hədiyyələrlə mükafatlandırılıb. Veteran güləşçinin ən böyük uğuru o olub ki, Şuşada və Dağlıq Qarabağda onun kürəyini yerə vuran olmayıb.

Ömrünün 89-cu payızına qədəm qoyan bu tanınmış güləşçi - “Qarabağ pələngi” tez-tez keçmiş günlərini xatırlayır və doğma yurdu olan Şuşaya qayıdacağı günü səbirsizliklə gözləyir.

## Şuşalı ilk qadın idman müəllimi



O, xanımların nadir hallarda seçdiyi peşəni bəyənmişdi. Özü də ötən əsrin uzaq 50-ci illərində. Amma sevib-seçdiyi bu peşəyə sadiq qaldı, 53 il vicdanla, məsuliyyətlə, ləyaqətlə ona qulluq etdi. Bir gün belə bu sahəni seçdiyinə görə peşman olmadı, əksinə peşəsinə yeniliklər gətirdi, oğlanlı-qızlı onu şagirdlərinə sevdirdi, davamçılarını yetişdirdi.

Söhbət qocaman idman müəlliməsi Həqiqət Hüseynovadan gedir.

Həqiqət Hüseynovanın Azərbaycanda ilk xanım idman müəllimlərindən olduğunu desək, yanılmarıq. Ancaq bu təqdimat kifayət etməz. Ömrünü pedaqoji fəaliyyətə, idmanın inkişafına həsr etmiş, 19 yaşından 72 yaşına kimi eyni məktəbdə 53 il fasiləsiz çalışmış, minlərlə şagirdin elm, bilik almasında, idmanın müxtəlif növlərinin sirlərini mənimsəməsində, sağlam həyat tərzi seçməsində misilsiz xidmətlər göstərmiş bu ağbirçək pedaqoqumuzu yaxından tanımaq, onun həyat yolundan, fəaliyyətindən nümunə götürmək hamımız üçün vacibdir.

Həqiqət Vilayət qızı Hüseynova 1939-cu il mayın 3-də Şuşa rayonunun Malıbəyli kəndində anadan olub. O, 1947-1954-cü illərdə Malıbəyli kənd orta məktəbində təhsil alıb. Məktəbi bitirdikdən sonra Şuşa Pedaqoji Texnikumunun bədən tərbiyəsi fakültəsinə qəbul olub. Onun bu seçimi çoxları üçün gözlənilməz idi. XX əsrin 50-ci illərində 15 yaşlı qızın məhz bədən tərbiyəsi və idman sahəsini seçməsinin adi qarşılanmaması bu günümüzdən baxanda belə başa düşüləndir. Lakin o, fikrində qəti idi - idman müəllimi olacaqdı.

Texnikumda oxuyarkən onun idman və bədən tərbiyəsi sahəsini seçdiyinin təsadüfi olmadığını bir daha anladı. Bu sahəyə olan marağı, sevgisi daha da artdı. Dərsliklərdən öyrəndikləri öz yerində, o, respublikada və o vaxt SSRİ-də idman sahəsində baş verən yenilikləri izləyirdi. Bədən tərbiyəsi və idmanın insanların sağlam həyat yaşamasının əsas elementi olması onun həvəsini daha da artırırdı. İnsanlara sağlamlıq, gümrahlıq, uzun ömür bəxş etməkdən gözəl nə ola bilərdi?

Bu amalla 1958-ci ildə texnikumu bitirən Həqiqət Hüseynova elə həmin ildən Malıbəyli kənd orta məktəbində bədən tərbiyəsi fənnini tədris etməyə başlayır. Artıq nəzəriyyə və dərsliklərdən əldə etdiyini təcrübədə tətbiq etmək zamanı gəlmişdi. Gənc müəllimə nəzəriyyə ilə təcrübəni əlaqələndirməyi çox uğurla bacardı. O, “Qızdan idman müəllimi olar?”- deyib rişxənd edənlər üçün də tezliklə “sevimli Həqiqət müəllimə” oldu.

Onun tədris etdiyi bədən tərbiyəsi şagirdlərin həvəslə hazırlaşdığı, sevdiyi fənnə çevrildi. Məhz onun şagirdlərində bu fənnə yaratdığı sevginin, marağın nəticəsi idi ki, Malıbəyli kənd orta məktəbi istər rayon, vilayət (DQMV) istərsə də respublika səviyyəli idman yarışlarında uğurla təmsil olunurdu. Məktəbdə şagirdlərin bədən tərbiyəsinin, idmanın sirlərini öyrətməyin, onlara sağlam böyümək üçün idmanla məşğul olmağın nə qədər vacib olduğunu yaxşı başa düşürdü. Bununla yanaşı, məktəblilər arasında keçirilən müftəlif yarışlara hazırlıq prosesini də çox böyük əzm və ustalıqla yerinə yetirirdi. Keçmiş SSRİ-də məşhur olan “Qartal balası” (“Orlenok”), “Üfüqdə parıltı” (“Zarniça”) oyunlarında Malıbəyli məktəbliləri həm rayon, həm də vilayət miqyasında daim uğurla çıxış ediblər. Məhz bu səbəbdən Malıbəyli məktəbi bütün DQMV-da digər fənlərdə olduğu kimi, idman və bədən tərbiyəsi sahəsində də fərqlənirdi. Əlbəttə ki, bunun arxasında Həqiqət Hüseynovanın yorulmaz əməyi, tükənməz enerjisi dayanırdı.

O, daim yeniliklər axtarışında idi. Dəfələrlə təkmilləşdirmə kurslarında iştirak edir, bilik və bacarıqlarını artırırdı. Onun adi bir kənd məktəbinə gətirdiyi yeniliklər, sözün əsl mənasında, inqilab idi. Məktəbdə müxtəlif yaş qrupları arasında təşkil etdiyi futbol, voleybol, basketbol, əl topu, güləş, gimnastika, stolüstü tennis, şahmat, dama və s. yarışlar böyük rəqabət mühitində keçir, sonsuz maraqla qarşılanırdı. Demək olar ki, bütün kənd bu yarışlarla nəfəs alırdı. Bu yarışlar arasında “Şən startlar” xüsusilə seçilirdi. İbtidai sinifdən yuxarı sinifə qədər hər bir şagirdin iştirak etdiyi “Şən startlar” yarışı əsl bayram ab-havasında keçirdi. Həqiqət müəllimə “Şən startlar”ın proqramını elə məharətlə, ustalıqla hazırlayırdı ki, yarşları sevməmək, ona maraq göstərməmək mümkün deyildi.

Onun məktəbə gətirdiyi ən mühüm yenilik isə səhər gimnastikası idi. Təsəvvür edin, qadın müəllimə idman geyimində bütün məktəb şagirdləri üçün dərs başlamazdan əvvəl səhər gimnastikası keçirdi. Həqiqət müəllimənin bu addımı təkcə Malıbəyli kəndində deyil, bütün rayonda səs salmış, böyük maraqla qarşılanmışdı.

Malıbəyli kəndi erməni silahlı bölmələri tərəfindən işğal olunana qədər (1992-ci ilin fevral ayı) Həqiqət Hüseynova belə çalışdı, Malıbəyli məktəblilərinin, gənclərinin sağlam ruhda, gümrah böyüməsi, formalaşması üçün əlindən gələni əsirgəmədi. İşğaldan sonra Zuğulba sanatoriyasında məskunlaşan Malıbəyli kənd 1 saylı tam orta məktəbində pedaqoji fəaliyyətini davam etdirən Həqiqət müəllimə bilik və təcrübəsini yenə də şagirdləridən əsirgəmədi. Sabunçu rayonu Ramana qəsəbəsinə köçəndən sonra (2007-ci il) da Həqiqət Hüseynova daha 4 il (2011-ci ilə qədər) gənclərə bədən tərbiyəsi və idmanın sirlərini öyrətdi, 70 yaşında belə tükənməz enerjisi ilə onlara örnək oldu.

Bu gün onun yaşı 80-ni keçib. Amma bütün şagirdləri üçün o, yenə də sevimli Həqiqət müəllimədir. Hər yerdə ona böyük sevgi və ehtiram var. Hamı onu görəndə həmişə böyük məhəbbət və hörmətlə qarşılayır.

Həqiqət müəllimə uzunmüddətli pedaqoji fəaliyyəti dövründə fəxri fərmanlarla, diplomlarla, qiymətli hədiyyələrlə mükafatlandırılıb. 2010-cu ildə isə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən ona Azərbaycan Respublikasının “Fəxri Bədən Tərbiyəsi və İdman işçisi” adı verilib.

Eyni məktəbdə 53 il fasiləsiz pedaqoji fəaliyyət göstərmiş Həqiqət Hüseynovanın həyat yolu hər birimiz üçün bir örnək, bir nümunədir.

***Əbülqasım Novruzov,***
***Şuşa Uşaq Gənclər İdman-Şahmat Məktəbinin direktoru***



# Qarabağ Azərbaycandır!

# Azərbaycan əsgərinin gəlişinə sevinən Qarabağ torpağı

## *Hümbət Həsənoğlu:*

## *“ Uzun illərdir ki, biz bu milli birliyi arzu edirdik. Artıq o da reallaşdı”*

**1988**-ci ilin fevral ayının 22-dən başlayan Qarabağ müharibəsi 32 il idir ki, səngimək bilmir və 1994-cü ildən atəşkəs elan olunsa da, zaman-zaman ermənilər cəbhə bölgələrində həmvətənlərimizə güllə atıb, onlara xəsarət yetirir və insanlarımız da şəhid olurdular. Hətta həmin vaxtlardan yaradılan Minsk qrupu Amerika, Rusiya və Fransanın həmsədrliyi ilə həmişə birtərəfli mövqe tutub, həyasızcasına ermənilərə köməklik edirdilər. Onların yeganə bir məqsədi vardı: “Nəyin bahasına olursa-olsun Qarabağı bütövlükdə ermənilərə vermək”. Artıq 32 il



gözləyən xalqımız toparlandı və 2020-ci ilin sentyabr ayının 27-dən Qarabağda erməni təxribatçılarına çox layiqli cavablar verməyə başladı. Az bir vaxtda döyüş bölgələrində üstünlüyü ələ keçirdi və düşmənə layiqli cavab verməklə bir neçə yaşayış məntəqələrimizi, döyüş üçün çox vacib olan bir sıra strateji yüksəklikləri ələ keçirdi. Rəşadətli əsgərimiz, Suqovuşanda erməni bayrağını bir əsgi kimi kənara atıb, orada üçrəngli Azərbaycan bayrağını dalğalandırdı. Bu gün də rəşadətli ordumuz, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qələbəyə doğru çox inamla irəliləyir. Deməli, tezliklə üç rəngli bayrağımızı Şuşada, Xankəndidə ucaldacağımız günlərə çox az qalıb. Bütün bu xoş xəbərləri eşitdikcə bütövlükdə xalqımız sevinc göz yaşları ilə bir-birini salamlayır. Bax biz, bu sevinci necə də böyük ümidlə gözləyirdik.

Biz əvvəllər də 2016-cı ilin aprel və 2020-ci ilin iyul ayında da ermənilərlə üz-üzə gəlib, onlara layiqli cavablar vermişdik. Amma həmin vaxtı bəzi super güclü ölkələr bizə imkan vermədi ki, döyüşlərimizi uğurla davam etdirək. Artıq bütün bunlardan cana doyan Azərbaycan xalqı Ali Baş Komandanımızın rəhbərliyi ilə yenidən döyüşləri bərpa etdi. Artıq bu döyüş də bizim Qarabağda Böyük Vətən Müharibəmiz hesab olunur. Və çox sevindirici haldır ki, xalqımız arasında çox böyük milli birlik yaranıb və bir millət olaraq iqtidar da, müxalifət də bir yumruq kimi birləşərək, düşmənə layiqli cavablar verir. Bu müharibədə xalq arasında çox böyük ruh yüksəkliyi var. Hamı arxa cəbhədə olan cavanlarımızı döyüş bölgələrinə yüksək əhval-ruhiyyə ilə yola salır. Xalqımızın bu böyük əhval-ruhiyyəsini qoruyub saxlaması üçün bu gün ziyalılarımızdan, ağsaqqallarımızdan daha çox şey tələb olunur. Onlar özlərinin böyük düşüncəsi, müdrik ağlı ilə bu gün ön cərgədə olmalıdırlar. Xalqımızı qələbələrə daha çox ruhlandırmalıdırlar. Artıq xaricdə yaşayan azərbaycanlılar da, yaşadıqları ölkədə böyük yürüşlər keçirməklə Azərbaycanın yanında olduqlarını lazım olan şəkildə göstərirlər.

Bu müqəddəs işdə də ziyalılar öndə getməli və xalqı öz ardınca aparmalıdırlar. Bu gün Azərbaycanın tanınmış ziyalılarından biri də, tanınmış göz həkimi, yazıçı-publisist, yüzə yaxın hekayənin, novellanın, iki mindən çox aforizmin müəllifi Hümbət Həsənoğludur. Biz onunla bu döyüşlərlə bağlı fikirlərini öyrənmək istədik.

***- Hümbət müəllim, sentyabr ayının 27-dən başlayan xalqımızın böyük coşğu ilə öz torpaqları uğrunda apardığı Böyük Vətən Müharibəsi haqqında bir ziyalı kimi nə deyə bilərsiniz?***

- Siz bilirsiniz ki, 32 il bundan qabaqkı dövrdə xalqımız erməni təxribatçıları ilə müharibə apardığı bir vaxtda, həmvətənlərimizin əlində olan ov tüfənglərini, evlərində olan bütün kəsici alətləri belə Sovet rəhbərləri yığdırmışdılar. Həmin vaxt biz Sovetlər Birliyi olan bir ölkənin, imperiyanın tərkibində idik. Moskvada olan havadarlarının köməkliyi ilə ermənilərə çox böyük üstünlük verilmişdi. Həmin vaxtı SSRİ müdafiə naziri Qraçov idi. Onun anası da erməni idi. Eləcə də baş katib, başıboş Mixail Qorbaçov və arvadı Raisa da erməniləri müdafiə edirdi. Hətta həmin vaxtı Yakovlev Ermənistana gedib, onlara tapşırıqlar verirdi ki, Qarabağı götürün. Biz də həmin vaxtı Sovetlər Birliyinin rəhbərliyinə inanırdıq ki, onlar bizi müdafiə edəcəklər və ermənilər heç nə edə bilməyəcək. Belə dəhşətli haqsızlıq da ola bilməz. Qarabağ bizimdir və bizim də olacaq. Tezliklə hamı öz evinə, öz ocağına qayıdacaq və haqq-ədalət öz yerini tapacaq. Beləliklə, Moskvada oturan rəhbərlər Qarabağdan istifadə edib, SSRİ-ni məhv etdilər. Həmin bombanın da fitili Sumqayıt oldu. Çünki Qarabağ hadisələrini bir sumqayıtlı kimi Sumqayıt hadisələrindən ayırmaq istəmirəm. Bilirsiniz ki, Ermənistan dövlətini I Pyotrun vəsiyyəti ilə ruslar yaradıb. SSRİ də keçmiş Rus dövlətinin bir forması idi. Onlara da Erməni dövləti Zaqafqaziyada çox lazım idi. Ruslar Qarabağı almaqla ikinci bir erməni dövləti yaratmaq istəyirdilər. Bizim millət də bu 32 ili çox səbirsizliklə gözləyirdi ki, onlara bir şans verilsin və torpağımızın qisasını ala bilsinlər. Nəhayət elə bir imkan yarandı. Siz bilirsiniz ki, elə son vaxtlar ermənilər nəinki Qarabağdan, hətta Ermənistandan da silahlardan istifadə edib, dinc əhalimizi qətlə yetirirdilər. Elə bu ilin iyul ayındakı Tovuz hadisələri buna canlı misaldır. Və biz başa düşdük ki, elə bizim öz torpaqlarımızdan - Qarabağdan da, Ermənistandakı torpaqlarımızdan da bizə mərmilər atırlar. Bunu da dünyanın super güc dövlətləri adi bir iş kimi qarşılayırlar. Amerikanın, Rusiyanın




və Fransanın rəhbərlik etdiyi Minsk qrupu da bunu adi bir hal kimi baxırdılar. Ermənilərə bu vəhşi hərəkətlərinə görə heç nə demirlər. Axı bu necə ola bilər? Burada hansı məntiq var? Artıq görün ermənilər necə azğınlaşdılar ki, sentyabr ayının 27-də səhər saat 6-da bizimlə qeyd-şərtsiz müharibəyə başladı. Ali Baş Komandanımız da əmr verdi və bizim ordu da əks-hücuma keçdi. Elə bir gündə 7 kəndi düşmənlərdən azad etdik. Artıq indi xeyli kənd də ermənilərdən azad olunub. Sevinirəm ki, mənim doğma yurdum Cəbrayıl şəhəri, bir neçə kəndi və bizim ata ocağımız Quycaq kəndi də ermənilərdən azad edilib. Bu, məni sevincdən kövrəldir. Bu gün də əks-hücumlarımız böyük uğurla davam edir. Mən də qətiyyətlə əminəm ki, biz sona qədər vuruşub, torpaqlarımızı ermənilərdən tam azad eləyib, tezliklə Xankəndidə, Şuşada və işğal olunmuş bütün torpaqlarımızda üçrəngli bayrağımızı ucaldacağıq. Bu qələbə heç də uzaqda deyil. Əsas odur ki, xalqımız Prezidentin ətrafındadır. Onun qətiyyətini dəstəkləyirlər. Hətta Madagizə yenidən əvvəlki adının, cənab Prezidentimizin əmri ilə Suqovuşan adının qaytarılması hamının ürəyincə oldu. İnanıram ki, erməni işğalından azad etdiyimiz bütün kəndlərimizə onların əvvəlki adları qaytarılacaq. Cənab Prezident İlham Əliyev bir neçə gün bundan qabaq yaralıların yanında oldu. Onlarla xoş söhbətlər apardı. Yaralıların da ilk sözü o oldu ki, tezliklə sağalıb, cəbhəyə qayıtmaq istəyirik. Deməli, belə igid oğullarımız erməniləri tezliklə darmadağın edəcəklər. Tez-tez cəbhə bölgələrindən də göstərilən kadrlarda əsgərlərimizin böyük coşqulu əhval-ruhiyyəsi hamımızı sevindirir. Mən hesab edirəm ki, xalqımızda olan bu böyük ruh yüksəkliyinin qarşısında erməni tab gətirə bilməyəcək. Çünki atalarımızın da belə gözəl məsəli var: “El bir olsa, dağ oynadar yerindən”. Bəli, xalqımız birdir. Möhkəm milli birlik yaranıb. Uzun illərdir ki, biz bu milli birliyi arzu edirdik. Artıq o da reallaşdı.

***- Çox yaxşı vurğuladınız ki, bu gün xalq yüksək əhval-ruhiyyədədir və böyük milli birlik var. Bir ziyalı həkim, yazar kimi sizin arzularınız nədir?***

- Mən başa düşürəm ki, bu müharibədir və biz şəhidlər verəcəyik. Azadlıq uğrunda canını fəda edən şəhidlərimizin, həmvətənlərimizin valideynlərinə Allahdan böyük səbr diləyirəm və bağsağlığı verirəm. Mən bir şeyi demək istəyirəm ki, Çanaqqala döyüşündə türklərlə birlikdə iki mindən çox azərbaycanlı da iştirak edib. Həmin döyüşdə də çoxlu əsgərlər şəhid olmuşdular. Onların çoxunun anaları Atatürkün yanına gəldilər. Böyük Atatürk onlara bir neçə söz söylədi və sonda isə belə dedi: “Siz yenə oğul doğa biləcəksiniz. O oğulları böyüdəcəksiz. Amma torpaq doğmaq mümkün deyil”. Əlbəttə, mən də istəmirəm ki, bizim övladlarımız şəhid olsun. Çünki mən də atayam, babayam. İstəmərəm belə şey olsun. Amma axı biz 32 ildir ki, torpaqlarımızı azad etmək üçün səbrlə gözləyirdik. İstəyirdik ki, düşmənlərimiz torpaqlarımızı sülh yolu ilə qaytarsınlar. Amma onlar, təkcə düşmənlərimiz yox, onların havadarları belə bizim səbrimizi zəiflik kimi qəbul etdilər. İndi Azərbaycan oğlu öz sözünü döyüş meydanında deyir və düşmənə nəyə qadir olduğunu sübut edir.

***- Qondarma Dağlıq Qarabağın pulu olmaya-olmaya bu qədər silah-sursat onlarda haradandır? Belə dəhşətli, milyonlar xərclənən səngərləri hansı pulla düzəldiblər?***

- Səngərdə Azərbaycan əsgəri ilə erməni əsgəri üz-üzədir. Erməni başa düşür ki, bura onun öz torpağı deyil. Belə olduqda onun nə təpəri, nə motivasiyası, nə də özünə inamı var. O, səngərdə oturub, Nikol Paşinyanı söyür ki, “Axı sən məni bura niyə salıbsan? Axı bu torpaqda mən niyə olmalıyam?” İndi təsəvvür edin ki, həmin torpağın yiyəsi erməni qəsbkarlarını oradan qovur. Çünki bu torpağın yiyəsi, həmin torpaqdan güc alır. Bəli. Bizim əsgərlərimiz Vətən torpağından güc alır. Amma erməni o torpaqdan güc ala bilmir. Çünki o torpaq erməniyə yaddır. O torpaq onu qəbul edə bilmir. O torpaq sevinir ki, nəhayət Azərbaycan əsgəri gəlib, öz yurdunu düşməndən azad edir. O torpaq onun ayağının səsinə, nəfəsinə sevinir. Min illər ərzində eşitdiyi danışığına sevinir. Bax, ermənilər bunun qarşısında dayana bilərmi? Xeyr. Heç vaxt dayana bilməz. Ona görə də eşq olsun Azərbaycan əsgərinə! Eşq olsun Azərbaycan xalqına! Mən elə bu gün yazdığım aforizmlə fikrimi davam etdirmək istəyirəm və deyirəm: “Hamı olsa tən, basılmaz Vətən”.

Burada bir fikrimi də xüsusi vurğulamaq istəyirəm. Dövlətin, dövlət olması üçün bütün atributları ilə yanaşı, bir şərt də çox vacibdir. Yəni hər bir xalqın qələbə günü olmalıdır. Təəssüf ki, heç də bizim xalqların belə qələbə günü yoxdur. İnanıram ki, bu müharibənin sonunda biz belə bir günü əldə edəcəyik. Yəni vuruşaraq, qələbə günümüzü tarixə yazacağıq. Bax bu qələbə günü xalqımızın qürur, iftixar, özünə inam hissini özümüzə qaytaracaq. Həmin gün də xalqımızın tarixində Qələbə Günü kimi əbədi qeyd olunacaq.

***Ağalar İdrisoğlu,***
***Əməkdar incəsənət xadimi***



# Qarabağ Azərbaycandır!

# Ermənilərin növbəti terroruna Gəncə idmançılarından kəskin reaksiya

***Məlum olduğu kimi, işğalçı Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, habelə 2020-ci il oktyabrın 10-u saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə alıb yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutaraq terror əməllərini davam etdirir.***

***Ermənistan silahlı qüvvələrinin oktyabrın 10-dan 11-nə keçən gecə saat 02:00 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində 10 dinc sakin qətlə yetirilib, 34 nəfər isə yaralanıb. Həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.***

***Erməni vəhşiliyinin və terrorizminin bu çirkin əməli idman ictimaiyyətinin də hiddətinə səbəb olub. Dinc əhaliyə qarşı törədilən bu vandalizmi Gəncədən olan idman ictimaiyyətinin nümayəndələri birmənalı olaraq pisləyib, bu hərəkətin cavabsız qalmayacağına inandıqlarını bildiriblər. “Olimpiya dünyası” qəzetinin əməkdaşları Gəncə idmançıları və idman ictimaiyyətinin nümayəndələri ilə əlaqə saxlayaraq, bu hadisələr barədə onların fikirlərini öyrəniblər.***

## “Ermənistan tərəfindən törədilmiş cinayətlər hərbi və siyasi təxribat kimi qiymətləndirilməlidir”

***Mövlud Mirəliyev (Pekin-2008 Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı, DİN İC-in Gəncə Şəhər Regional qurumunun baş inspektoru, polis polkovnik-leytenantı):***

- Bildiyiniz kimi, humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan ordusu oktyabrın 11-də gecə radələrində döyüş bölgəsindən tamamilə kənarda yerləşən Gəncə şəhərini raket atəşinə tutub. Raket mərmisi Gəncənin mərkəzi küçələrindən birinə düşüb və yaşayış binası tamamilə dağılıb, bina sakinləri dağıntılar altında qalıb. Bu təbii ki, insanlığa yaraşmayan bir hadisədir. Bu hadisələr bir daha Ermənistan ordusunun hansı xislətə malik olduğunu açıq aydın nümayiş etdirdi. Müharibənin də öz qayda qanunları var. Dinc əhaliyə qarşı törədilən bu çirkin əməlləri qəti şəkildə pisləyirəm. Ermənistan tərəfindən törədilmiş cinayətlər hərbi və siyasi terror kimi qiymətləndirilməlidir. İnanıram ki, onlar bu hərəkətlərinə görə öz layiqli cəzalarını alacaqlar. Qeyd edim ki, bu ilk belə hal deyil. Bu artıq neçənci dəfədir ki, təkrarlanır. Budəfəki hadisədə isə çox ciddi dağıntılara, eləcə də 10 dinc sakinin həyatını itirməsinə, 34 nəfərin isə yaralanmasına səbəb oldu. Yaralananlar arasında uşaqların olması isə hər kəsin ürəyini ağrıdır. Bu erməni vandalizmini, vəhşiliyini bir daha açıq-aydın nümayiş etdirir. Çünki o, körpələrin heç bir günahı yoxdur. Ermənilər düşünməsinlər ki, belə təxribat əməlləri ilə Gəncə sakinlərinin gözünü qorxuda bilərlər. Gəncə sakinləri çox mərd, qorxmaz insanlardır. Bu hadisələrlə bağlı faktlar toplanılıb, dünya ictimaiyyətinə məlumat verilib. İnanıram ki, beynəlxalq qurumlar da bu məsələ ilə bağlı tezliklə reaksiya verəcəklər.

## “Olimpiya çempionu kimi hər zaman döyüşə hazıram”

***Toğrul Əsgərov (London-2012 Yay Olimpiya Oyunlarının qalibi):***

- Gəncədə baş verən terror həqiqətən də ermənilərə yaraşan hadisədir. Onlar təkcə Gəncəni deyil, digər rayon və kəndlərimizi atəşə tuturlar. Bu təxribat əməllərinə görə sakinlərimizə ciddi ziyan dəyir. Erməni vəhşiliyinin bariz nümunəsi olan bu hadisələr bir gəncəli idmançı olaraq mənə çox pis təsir etdi. Amma belə şeylər bizi qorxuda bilməz. Arzumuz odur ki, Ordumuz qələbə ilə işğal altında olan torpaqlarımızı düşməndən azad etsin. Bizim üçün ən vacib olan da məhz budur. Ordumuza çox inanırıq. Ermənilər bizim əsgərlərə qarşı mübarizə apara bilmədikləri üçün qorxaqcasına dinc əhalini hədəfə alırlar. Gəncədə baş verən bu terror aktı zamanı dünyasını dəyişən insanlar oldu. Mərmi tanışlarımızın və ailəmizin yaşadığı ərazidən bir qədər aralı düşüb. Gəncədə demək olar ki, hamı bir-birini tanıyır. Hadisə nəticəsində tanıdığım insanlar arasında xəsarət alanlar da var. Zəng edib ailə üzvlərimizlə və tanıdığım insanlarla danışıb, onların səhhəti barəsində məlumat öyrənmişəm. Artıq erməni terroru bütün dünyaya məlumdur. Onlar tarix boyu belə hərəkətlər edir və hər zaman hansı xislətə malik olduqlarını da sübuta yetirirlər. Bu, insanlığa sığan hərəkət deyil. Biz onlara layiqli cavab verəcəyik. Gəncəliləri qorxutmaq istəyirlər. Gəncə şəhərinin sakinləri qorxmur və mərd şəkildə ayaqda dayanırlar. Belə şeylər gəncəliləri qorxuda bilməz. Mən də bir Olimpiya çempionu, Azərbaycan vətəndaşı və əsgəri kimi hər zaman döyüşə hazıram. Dəfələrlə beynəlxalq arenalarda erməni idmançıları üzərində qələbə qazanmışam. Bu gün də qazandığım qələbələri döyüş meydanında təkrarlamağa qadirəm.

## “Bu hadisələr bizim qətiyyətimizi, mübarizə əzmimizi qıra bilməz”

***İlqar Nadiri (“Kəpəz” Peşəkar Futbol Klubunun icraçı direktoru):***

- Bildiyiniz kimi, humanitar atəşkəs imzalansa da, Ermənistan öz riyakarlığını bir daha göstərdi və Gəncə şəhərinə hücum - terror aktı həyata keçirdi. Biz bunu idman ictimaiyyətinin nümayəndəsi olaraq qəti şəkildə pisləyirik. Bu mərmi bu günədək Gəncə şəhərinə atılan mərmilər içərisində demək olar ki, ən böyüyü idi. Dağıntıların və tələfatın olması da bunu bir daha sübut edir. Kəpəz stadionunun mərminin düşdüyü ərazidən 500 metr kənarda yerləşməsinə baxmayaraq, stadionda da çox ciddi dağıntılar baş verib. Düzdür, həmin vaxtı stadionun ərazisində olan işçilər arasında xəsarət alanlar olmasa da, stadiona maddi zərər dəyib. Stadionun inzibati binasında qapı və pəncərələrinin çərçivələri yerindən çıxıb. Qeyd edim ki, həmin arena “Kəpəz” Peşəkar Futbol Klubu üçün baza rolunu oynayır. Klubumuzun əsas və müxtəlif yaş qrupları üzrə komandaları məşqlərini və oyunlarını məhz bu arenada keçirir. Təbii ki, bu hadisələr bizim qətiyyətimizi, mübarizə əzmimizi qıra bilməz. Bu hadisələrə baxmayaraq məşqlərimizi davam etdiririk.

## “Bu hadisələrə görə ermənilərin layiqli cavabını alacağını düşünürük”

***Samir Hüseynov (Gəncə şəhər Kəpəz stadionunun direktoru):***

- Bu, ermənilər tərəfindən Gəncə şəhərinə qarşı törədilən ilk terror hadisəsi deyil. Son günlər ərzində Gəncə şəhərinə bir neçə dəfə raket mərmiləri düşüb. Sonuncu, insanlığa yaraşmayan terror hadisəsi isə hər birimizin hiddətinə səbəb oldu. Partlayışın həcmi çox böyük oldu və yaşayış binalarına ciddi zərər dəydi. Bu hadisə nəticəsində xəsarət alan və dünyasını dəyişən insanlar var. Dünyasını dəyişən insanlara Allahdan rəhmət diləyir, yaralılara isə tezliklə şəfa tapmasını arzulayıram. Biz idman ictimaiyyətinin nümayəndəsi olaraq, bu hadisələrdən çox narahat olduq. Bu, bizim üçün qəbuledilməzdir. Bildirim ki, hadisə zamanı Kəpəz stadionunun inzibati binasına da zərər dəyib. İnzibati binanın qapı və pəncərələrinin çərçivələri yerindən çıxıb, şüşələr qırılıb. Bu barədə klubun “facebook” səhifəsində də məlumat və şəkillər paylaşılıb. Biz bu terrorizmi şiddətlə qınayırıq və bu hadisələrə görə ermənilərin layiqli cavabını alacağını düşünürük. Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevə və müzəffər Ordumuza güvənirik. Allah ordumuza güc versin. İnanıram ki, tezliklə torpaqlarımız düşməndən azad ediləcək və bayrağımız əzəli torpaqlarımızda dalğalanacaq.

## “Atılan raket mərmiləri bizi qorxutmur”

***Sahib Rzayev (Azərbaycanın Milli Karate Federasiyasının Gəncə Regional şöbəsinin müdiri):***

- Bildiyiniz kimi, müharibə başlayandan erməni silahlı qüvvələri Gəncə şəhəri də daxil olmaqla, Azərbaycanın bir sıra rayonlarını raket atəşinə tutur, dinc əhalini hədəfə alır. Onlar bu hərbi terror hadisələrini törətməklə aranı qarışdırmağa, əhalini hiddətləndirməyə çalışırlar. Baş verən məlum hadisələr isə Gəncə əhalisini çox narahat etdi. Bildiyiniz kimi, bu hadisələr nəticəsində dinc əhali arasında ölən və yaralananlar oldu, yaşayış mənzillərinə ciddi ziyan dəydi. Bu müharibədir. Müharibədə hər şey olur. Amma belə xaincəsinə, alçaqcasına mübarizə aparmaq müharibənin qaydalarına ziddir. Ermənilər cəbhədə baş verən uğursuzluqlarını dinc əhalimizdən çıxmağa çalışırlar. Bu vasitələrlə gəncəliləri qorxutmaq istəyirlər. Amma onlar bilməlidirlər ki, atılan raket mərmiləri bizi qorxuda bilməz. Gəncə sakinləri arasında heç bir şəxs düşünmür ki, atılan raket mərmiləri nəticəsində evimiz dağıldı, obyektlərimiz ziyan gördü, iş yerlərimiz əlimizdən çıxdı. Hər kəs nikbindir və Ordumuza inanır. Mənim yaxın dostumun obyekti raket zərbəsi nəticəsində darmadağın edildi, özləri isə yaralandılar. Amma biz bu gün də buna baxmayaraq möhkəm dayanmışıq. Heç bir qüvvə bizi qorxuda bilməz. Mən özüm Qarabağ müharibəsində iştirak etmişəm. Hazırda mənim 60 yaşım olsa da, orduya könüllü yazılmışam. Torpaqlarımızın bütövlüyü uğrunda döyüşlərdə iştirak etməyə hər an hazıram. Bizim ermənilərin nə raketindən, nə digər silahlarından, nə də sonuncu törətdikləri terror hadisəsindən qorxumuz yoxdur. Biz öz yerimizdə möhkəm dayanmışıq. İnşallah zəfər bizim olacaq.

## “Düşmən əsgərləri bizim şanlı ordumuz qarşısında dayana bilməz”

***Elvin İsayev (Boks üzrə böyüklər arasında Avropa çempionu, gənclər arasında dünya çempionu):***

- Dinc əhalinin düşmən zərbəsindən əziyyət çəkməsi qəbuledilməzdir. Bizim ordumuz müharibəni cəbhə bölgəsində aparır. Amma düşmən bu qaydaya riayət etmir. Nəticədə isə, müharibə bölgəsindən çox uzaq olan Gəncə şəhəri atəşə tutulur. İlk dəfə deyil ki, Gəncə şəhəri və dinc əhali hədəfə alınır. Ötən gün endirilən zərbə isə digərlərində daha güclü oldu və daha geniş sahəni əhatə etdi. Zərbənin gecə endirilməsi isə daha çox insanın xəsarət almasına gətirib çıxardı. Körpə uşaqların, qadınların, bir sözlə, şəhər sakinlərinin həlak olması, xəsarət alması çox kədərlidir. Bildirim ki, həmin gün mən də Gəncə şəhərində idim. Partlayış evimizdən bir qədər aralıda baş verdi. Həmin vaxt ev silkələnsə də, evimizə ziyan dəymədi. Şəhərə demək olar ki, ardıcıl zərbələrin endirilməsi Gəncə sakinlərini qorxutmur və təşvişə salmır. Sakinlər arasında könüllü şəkildə müharibədə iştirak etmək istəyənlərin sayı həqiqətən də çoxdur. Hər bir vətəndaş bir igid kimi torpaqlarımızı işğalçı Ermənistan silahlı qüvvələrinin tapdağından azad etmək istəyir. Ümumiyyətlə, düşmən əsgərləri bizim şanlı ordumuz qarşısında dayana bilməz. Bu müharibədən bizim istəyimiz yalnız işğal olunan torpaqlarımızı azad etməkdir.

## “Xalqımız bu gün bir yumruq kimi birləşib”

***Vidadi Rzayev (“Kəpəz” futbol klubunun köməkçi məşqçisi):***

- Düşmənin Gəncə şəhərinin dinc sakinlərini hədəfə alması heç bir qaydaya uyğun deyil və bir terror aktıdır. Hər birimiz bu hadisədən sözün əsl mənasında təəssüflənirik. Düşmən təxribatı nəticəsində həlak olan Gəncə sakinlərinə Allahdan rəhmət diləyirəm, yaralılara isə tezliklə şəfa tapmasını arzulayıram. Şəhər sakinləri düşmənin bu təxribatından qorxmur. Biz də öz növbəmizdə düşməni sevindirməmək və təşvişə düşmədiyimizi göstərmək üçün məşqlərimizə davam edirik. Hər zaman bir-birinə dayaq və kömək olan xalqımız bu gün də yumruq kimi birləşib. Düşmən ordusu bir neçə dəfə ölkənin ikinci ən böyük şəhərini hədəf almasının cavabını mütləq ən ağır şəkildə verəcək. Mən əminəm ki, 30 ilə yaxındır düşmən tapdağı altında olan torpaqlarımızı azad etməyə az qalıb.

## “Gəncənin atəşə tutulması terror hadisəsidir”

***Amil Həmzəyev (Basketbol üzrə milli komandanın üzvü):***

- Ermənistanın Gəncə şəhərinə zərbə endirməsi terror hadisəsidir. Mən hazırda məşqlərə görə Bakıda olsam da, valideynlərim Gəncədə yaşayırlar. Bizim evimiz zərbə endirilən ərazidən bir qədər uzaqda yerləşir. Atamın sözlərinə görə, zərbənin səsi evimizdə də hiss olundu. Valideynlərimə müvəqqəti olaraq, Bakıya gəlməyi təklif etsəm də, onlar bu təklifimi qəbul etmədilər. Ümumiyyətlə, mənim qohumlarım hamısı Gəncədə yaşayırlar. Onların heç biri düşmən tərəfindən endirilən zərbələrdən qorxmadıqlarını və Gəncəni tərk etməyəcəklərini bildirirlər. Bir neçə gündür ki, sosial şəbəkələrdə “PrayForGanja” həştağı ilə dağıdılmış binanın və xəsarət almış insanların videoları və şəkilləri paylaşılır. Sözün əsl mənasında, bu mənzərə məni çox kədərləndirir. Müharibənin cəbhə bölgəsində getməsi, təbii ki, daha məqsədəuyğundur. Hesab edirəm ki, düşmənin dinc sakinləri hədəfə alması, onların artıq çıxış yolunun olmamasından və müharibə bölgəsində məğlub olmalarından irəli gəlir.

Qeyd edim ki, mən də digər idmançılar kimi, könüllü şəkildə müharibədə iştirak etmək üçün qeydiyyatdan keçmişəm. Növbə ilə çağırış olduğundan, hələ ki, növbəmi gözləyirəm. Ümid edirəm ki, tez bir zamanda, mən də şanlı ordumuzun sıralarına qoşulacağam. İnanıram ki, düşmən tapdağı altında olan torpaqlarımızı istər sülh, istərsə də müharibə yolu ilə azad edəcəyik.

***Azər Alizadə,***
***Türkay Niftəliyeva***

# İdman ictimaiyyəti qələbə sevincini “Olimpiya dünyası” ilə bölüşür

*Sentyabrın 27-dən etibarən Dağlıq Qarabağda düşmən təxribatına layiqli cavab vermək üçün əks-hücuma keçən rəşadətli ordumuzun qələbə sorağı bütün xalqımızı sevindirir. 30 ilə yaxındır ki, işğal altında olan torpaqlarımızın bugünlərdə hissə-hissə azad olunması xəbərləri bir-birini əvəz edir.*

*Ali Baş Komandan, cənab İlham Əliyevin uğurlu siyasəti və ordumuzun şücaəti sayəsində illərdən bəri yağı tapdağı altında qalan doğma yurdumuz azadlığa qovuşur. Yaşından, vəzifəsindən asılı olmayaraq hər bir azərbaycanlı bu gün döyüşlərdən danışır, ardıcıl qələbələr münasibətilə bir-birini təbrik edir. Ölkənin hər bir yerində üçrəngli bayrağımız zəfər nümunəsinə çevrilib. Beynəlxalq arenalarda ən yüksəkdə dalğalanan Azərbaycan bayrağı bu gün işğaldan azad olunmuş mövqelərə sancılmaqda davam edir.*

*Azərbaycanda idmanın və Olimpiya Hərəkatının təbliğində özünəməxsus rolu olan “Olimpiya dünyası” qəzeti də döyüşlər başlayan gündən etibarən çoxsaylı oxucularına ordumuzun qələbə soraqlarını çatdırır. İdman ictimaiyyətinin qələbə sevincini və onların arzularını öyrənmək üçün əməkdaşlarımız idman federasiyaları və idmançılarla əlaqə saxlayır. Bu sayımızda da ənənəyə sadiq qalaraq, həmin fikirləri təqdim edirik.*

## “Hər birimiz cəbhədən gələn son xəbərləri həyəcanla gözləyirik”

***Nazim Hüseynov: (Olimpiya çempionu):***

- Hər birimiz cəbhədən gələn son xəbərləri həyəcanla gözləyirik. Ordumuza bu çətin günlərdə uğurlar diləyir, onlara yalnız zəfər qazanmağı arzulayıram. Hər birimiz Vətən üçün son damla qanımızdan və canımızdan belə keçməyə hazırıq. Hər birimiz bu Vətənin əsgəriyik. Mən və oğlum Naim Hüseynov da torpaqlarımızı düşməndən azad etmək üçün hərbçilərimizlə birgə vuruşmağa hər an hazırıq. Azərbaycan ordusu son günlərdə yeni qələbə xəbərləri ilə bizə hədsiz sevinc bəxş etdi. Bu qələbələr Azərbaycanın şanlı tarixində yeni səhifə açdı. Mən bütün şəhidlərimizin valideynlərinin qarşısında baş əyirəm ki, Vətən üçün belə mərd, qəhrəman oğullar yetişdiriblər. Allah yaralı hərbçilərimizə də tezliklə şəfa versin. Torpaqlarımızın müəyyən bir hissəsinin düşməndən azad edilməsi hər birimizdə ruh yüksəkliyi yaradıb. İnanıram ki, tezliklə bütün torpaqlarımız azad ediləcək və Azərbaycanın ərazi bütövlüyü tam təmin olunacaq. Bu biz idmançılarda da böyük ruh yüksəkliyi yaradacaq. İdmançılarımız da çalışacaq ki, bu ruh yüksəkliyindən yararlanaraq dünya, Avropa çempionatlarında və Olimpiya Oyunlarında Azərbaycan bayrağını yüksəklərə qaldırsınlar.

## “İdmançılarımız arasında böyük ruh yüksəkliyi var”

***Namiq Abdullayev: (Olimpiya çempionu, sərbəst güləş üzrə yığma komandanın baş məşqçisi):***

- Azərbaycan Ordusunun əzəli torpaqlarımızı düşməndən təmizləməsi və cəbhədən ard-arda gələn qələbə xəbərləri xalqımızın sevincinə səbəb oldu. Torpaqlarımız uğrunda şəhidlik zirvəsinə ucalan əsgərlərimizə Allah rəhmət eləsin. Yaralı hərbçilərimizə isə Allahdan şəfa diləyirəm. Düşmənlə cəsarətlə, şücaətlə döyüşən əsgərlərimizə güclü və əzmli olmağı arzulayıram. Mən əminəm ki, Azərbaycanın şanlı ordusu işğal olunan bütün torpaqlarımızı tezliklə azad edəcək və bayrağımız işğaldan qurtulan hər bir şəhər, rayon və kənddə ucalacaq.

Yığma komandanın tərkibində Olimpiya Oyunlarında, Avropa və dünya çempionatlarında dəfələrlə erməni rəqiblərini məğlub edib, bayrağımızı yüksəklərə qaldıran idmançılar var. Onlar da müharibəyə yollanıb, torpaqlarımızı işğaldan azad etmək üçün Ali Baş Komandanımızın əmrini gözləyirlər. Həm xalqımız, həm də idmançılarımız arasında böyük ruh yüksəkliyi var. Hər birimiz inanırıq ki, tezliklə Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək və xalqımız əzəli torpağına qayıdacaq.

## “Düşmən nə tatamidə, nə də döyüş meydanında bizə rəqib deyil”

***Elnur Məmmədli (Olimpiya çempionu, Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti):***

- 30 ilə yaxındır ki, torpaqlarımızın 20 faizi işğal altında idi. İllərdir torpaqlarımızın azad olunacağı günü səbirsizliklə gözləyirdik. Bu gün həmin vaxt gəlib çatıb. Azərbaycanın güclü-qüvvətli ordusunun göstərdiyi şücaət bunu deməyə əsas verir. Hazırda Azərbaycan ordusu yeni bir tarix yazır. Ali Baş Komandanımız cənab İlham Əliyev hər zamanki kimi, əsgərlərimizin və xalqımızın yanındadır və onlara qələbə inamı verir. Əzəli torpaqlarımızın düşmən tapdağından azad etmək həqiqətən də qürurvericidir. Ordumuz sürətlə irəliləyərək, ardıcıl qazandığı qələbələrlə xalqımızı sevindirir. Biz idmançılar da cəbhədən gələn xoş xəbərlərə görə çox sevinirik. Bir idmançı və Olimpiya çempionu kimi ordumuzun yanındayam və lazım gələrsə birmənali olaraq özüm də hərbçilərimizlə birgə düşmənə qarşı vuruşmağa hazıram. Ümumiyyətlə, mən karyeram ərzində bir çox erməni idmançıları ilə üz-üzə gəlmişəm. Əminliklə deyirəm ki, düşmən nə tatamidə, nə də döyüş meydanında bizə rəqib deyil. Buna görə də, işğal olunan torpaqlarımızın şanlı ordumuz tərəfindən tezliklə azad olunacağına inanıram.

## “Azərbaycan xalqı yumruq kimi bir olub, ordumuza dəstəyini nümayiş etdirir”

***Firdovsi Umudov (Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti):***

- Şanlı ordumuzun əldə etdikləri uğurlar və torpaqlarımızın bir qisminin düşmən tapdağından azad olunması münasibəti ilə xalqımızı təbrik edirəm. Əminəm ki, bu qələbələrin, azad olunan şəhər və rayonların sayı günü-gündən artacaq. Torpaqlarımız uğrunda şəhidlərimiz bizim and yerimizdir, qürurumuzdur. Vətən üçün canından keçən hərbçilərimizə Uca Tanrıdan rəhmət, yaralılara Allahdan şəfa diləyirəm. Qeyd etmək istəyirəm ki, ölkəmizin hər bir vətəndaşı kimi biz idmançılar, idmançı-zabitlər hər zaman ordumuza dəstək oluruq. Biz də öz növbəmizdə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin qəbul etdiyi hər bir qərarı icra etməyə hazırıq. Bu gün yarış meydanlarında əldə etdiyimiz uğurları Qarabağ müharibəsində də təkrarlamağa qadirik. Bu gücü xalqımızdan alırıq. Xalqımız öz dəstəyi ilə hər zaman bizi Olimpiya Oyunlarında, Avropa və dünya çempionatlarında qələbə qazanmağa ruhlandırır. Lakin yarış meydanındakı savaş, döyüş meydanında olan savaşdan fərqlənir. Şübhəsiz ki, Azərbaycan bu savaşdan da qalib ayrılacaq. Əminəm ki, Ali Baş Komandanımızın rəhbərliyi altında Qarabağda, Xankəndidə, Şuşada, Ağdamda, Xocalıda, Füzulidə üçrəngli bayrağımızı sancıb, qələbə sevincini yaşayacağıq. Çünki Qarabağ Azərbaycandır! Azərbaycan xalqı yumruq kimi bir olub, ordumuza, dövlətimizə dəstəyini nümayiş etdirir. Bilirsiniz ki, güc birlikdədir. Birlik olan yerdə isə hər zaman qələbə var. Vətəndaşlarımızın ordumuza, əsgərlərimizə ürəklərindən gələrək etdikləri yardımlar və sovqatlar xalqımızın birliyinin bariz nümunəsidir. Əlbəttə ki, ordumuz hər şeylə tam təmin olunub. Lakin xalqımızın bu addımı əsgərlərinə, hərbçilərinə olan sevgisi, hörməti və minnətdarlığından irəli gəlir.

## “Hər birimiz bu haqq mübarizəsində ordumuzun yanındayıq”

***Məhərrəm Sultanzadə (Azərbaycan Atletika Federasiyasının baş katibi):***

- Bu gün bütün xalqımızın ürəyi hərbçilərimizlə döyünür. Hər birimiz səbirsizliklə cəbhədən gələn xəbərləri, ordumuzun yeni qələbə soraqlarını gözləyirik. İnanıram ki, tezliklə müharibə xalqımızın zəfəri ilə başa çatacaq və torpaqlarımız düşməndən azad ediləcək. Biz hər birimiz bu haqq mübarizəsində ordumuzun yanındayıq. Qeyd edim ki, atletika idman növü üzrə iki idmançımız hərbçilərimizlə birgə düşmənə qarşı mübarizə aparmaq üçün cəbhə bölgəsinə yollanıb. Onlardan biri Arif Qeybiyev qəhrəmancasına döyüşərək, Vətən uğrunda şəhid olub. Azərbaycan Atletika Federasiyası adından şəhid idmançımızın ailəsinə dərin hüznlə başsağlığı veririk. 2006-cı ildən atletika ilə məşğul olan Arif Qeybiyev bu idman növü üzrə yığma komandanın üzvü olub. 2012-2015-ci illər arasında kross qaçışı üzrə üçqat Azərbaycan çempionu, dəfələrlə respublika çempionatlarının, birinciliklərinin qalib və mükafatçısı olub. O, 2014-cü ildə yığma komandanın tərkibində Avropa Olimpiya Təsnifat yarışlarında iştirak edib. Bizim digər idmançımız Elnur Qurbanlı da bu gün cəbhə bölgəsindədir. Ona və digər hərbçilərimizə bu haqq mübarizəsində uğurlar arzulayıram. Biz haqq yolundayıq, bizim işimiz haqq işidir və qələbə bizimlə olacaq.

## “Azərbaycan tezliklə öz ərazi bütövlüyünü bərpa edəcək”

***Vüqar Əzimov (Azərbaycan Basketbol Federasiyasının baş katibi):***

- Azərbaycanın əzəli torpaqlarını düşmən tapdağı altından azad etməsi tarixi hadisədir. Azərbaycan Ordusunun xalqımıza yaşatdığı bu sevinc, heç bir hisslə müqayisə oluna bilməz. Dövlətimizin qəbul etdiyi hər bir qərarı federasiya olaraq dəstəkləyir və hər an ordumuzun yanındayıq. Azərbaycan basketbolçuları da xalqımızın hər bir nümayəndəsi kimi, torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak etməyə hazırdırlar. Basketbolçularımızda da ruh yüksəkliyi müşahidə olunur. Onlar arasında hazırda müharibədə düşmənə qarşı əsgərlərimizlə çiyin-çiyinə döyüşənlər və ordu sıralarına qoşulmaq üçün könüllü şəkildə qeydiyyatdan keçənlər də var. Həmçinin Azərbaycan Basketbol Federasiyası ordumuza dəstək məqsədi ilə “Qarabağ Azərbaycandır!” - adlı videoçarx hazırlayıb. Bundan əlavə qadın basketbolçularımız da ordumuzu yaxından dəstəkləyirlər. Milli komandamızın üzvləri Azərbaycanın haqq yolunda olduğunu və şanlı ordumuzun şücaətli mübarizəsindən bəhs edən dəstək videosu hazırlayıblar. İnanıram ki, Azərbaycan tezliklə öz ərazi bütövlüyünü bərpa edəcək və biz doğma yurdumuza qayıdacağıq.

## “Xalqı yaşadan və qələbəyə ruhlandıran onun inamıdır”

***Dilqəm Quliyev (Pedaqogika üzrə elmlər doktoru, professor):***

Azərbaycan xalqı bugünki parlaq həyata qovuşmaq üçün böyük mübarizə yolu keçmişdir. Müstəqillik günü ilə başlanan müasir tariximizin iyirmi doqquz illik dövründə əldə olunmuş nailiyyətlərə görə xalqımız xilaskar liderimiz Heydər Əliyevə minnətdardır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qaydışı həlli çətin görünən bir çox məsələləri reallığa çevirdi. Azərbaycan bütün dünyada tanındı. Belə bir ağır, təhlükəli dövrdə ümummilli liderimiz Heydər Əliyev xalqın dadına yetişdi. Bu qayıdışla o, Azərbaycanda vətəndaş müharibəsini aradan qaldırdı. Düşmənlərimizin Azərbaycanı parçalamaq, məhv etmək planlarını puça çıxardı. Xalqımız, Müstəqil Azərbaycan fəlakətdən xilas oldu.

Mən Ulu öndər Heydər Əliyevin bir kəlamını oxucuların nəzərinə çatdırmaq istəyirəm. 1996-cı ildə mən Ulu öndərə “Şəhid idmançılar” kitabını təqdim edəndə, Əl Oyunları Sarayında “Azərbaycan Gənclərinin I Forumu”nda Ulu öndər Heydər Əliyev demişdi: “Vətənin idman şərəfini qorumaq səngərdə Vətənin torpağını qorumaq kimi şərəfli bir işdir”.

Əgər azadlıq dərk olunmuş həqiqətdirsə, onda həqiqət fikir azadlığının, ədalət isə həqiqətin övladıdır. Həm də ədalət gücdə deyil, güc ədalətdədir.

Yunan filosofu Platonun məşhur bir kəlamı var: “Azadlıq bərabərdir xalq, üstə gəl şəxsiyyət, şəxsiyyətsiz azadlıq xəyaldır”. Məhz bu gün Azərbaycanı azadlığa çıxaran şəxsiyyət Ümummilli liderimiz Heydər Əliyev olmuşdursa, onun azadlıq yolunu davam etdirəcək yeganə şəxs Cənab Prezident İlham Əliyevdir.

Xalqı yaşadan və qələbəyə ruhlandıran onun inamıdır. Hazırda məhz belə bir inamı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordumuzda, xalqımızda və gənclərimizdə yarada bilmişdir.

Qazanılan zəfərlər təkcə silahın gücü deyil, Ali Baş Komandan İlham Əliyevin uzaqgörən diplomatiyasının, dünyada yüksək nüfuzunun məntiqi nəticəsidir.

Bu günlərdə ön cəbhədə ağır döyüşlər gedir. Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Bu günləri biz həyatımızın ən mənalı, ən səvincli günləri hesab edirik. Azərbaycan əsgərinin rəşadəti bizi o qədər ruhlandırıb ki, ahıl olmağıma baxmayaraq, özümdə sanki yeni bir güc, qüvvə hiss edirəm və hər an ordumuzun sıralarına qoşulmağa, ordumuza bacardığım qədər köməyimi, dəstəyimi göstərməyə hazıram.

Bütün Azərbaycan xalqı kimi mən də, Ali Baş Komandanımız İlham Əliyevlə fəxr edirəm. Yaşasın, Azərbaycan!

# Güləş ailəsi Ali Baş Komandanın əmrini gözləyir

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən ordumuzun mövqelərini və yaşayış məntəqələrimizi atəşə tutdu. Ancaq ordumuz düşmənin hücumlarını uğurla dəf edərək əks-hücuma keçdi. Nəticədə Cəbrayıl şəhəri də daxil olmaqla, bır sıra yaşayış məntəqəsi işğaldan azad olundu. Müzəffər ordumuz qarşısında duruş gətirməyən ermənilər geri çəkilməyə məcbur olmaqla yanaşı, bir neçə strateji yüksəkliyi, xeyli sayda döyüş texnikasını və canlı qüvvəsini itirib.

Cəbhədə məğlubiyyətdən qaçmağın mümkün olmadığını anlayan Ermənistan növbəti dəfə təxribata əl ataraq, cəbhə zonasından uzaq şəhər və rayonlarımızı hədəfə alıb. Mülki əhaliyə qarşı artilleriya silahlarından istifadə edən düşmənin müharibə qaydalarına zidd və qeyri-insani addımları nəticəsində dinc sakinlərimiz həyatını itirib, xeyli sayda insan yaralanıb. Həyatını itirənlər arasında azyaşlı yeniyetmələr də var.

Ancaq ermənilərin bütün bu təxribatları cavabsız qalmır və qalmayacaq. Biz Azərbaycan güləş ailəsi olaraq bildiririk ki, Ali Baş Komandan İlham Əliyevin əmri ilə sıravi əsgər və zabit kimi ordumuza qoşulmağa və bu yolda canımızdan da keçməyə hazırıq. Əminik ki, haqq bizim tərəfimizdədir və tezliklə ərazi bütövlüyümüz bərpa ediləcək. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!





Türkiyə yığmasının əslən azərbaycanlı atleti Ramil Quliyev Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə raket zərbələri nəticəsində törətdiyi terror hadisəsinə reaksiya verib.

30 yaşlı idmançı bununla bağlı "Instagram"da paylaşım edib. O, üzərində "Pray for Ganja city" ("Gəncə şəhəri üçün dua edin") sözləri yazılmış foto paylaşıb. Qeyd edək ki, Ramil Quliyev 200 metr məsafəyə qaçış üzrə Avropa və dünya çempionudur.

## Avropa və dünya çempionu Gəncədə törədilən terrora reaksiya verib

## *AMADA Silahlı Qüvvələrə Yardım Fonduna ianə edib*

Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda inamla döyüşən şanlı Azərbaycan Ordusuna dəstək məqsədilə Silahlı Qüvvələrə Yardım Fonduna 10 min manat vəsait köçürüb.

AMADA-dan "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, qurumun əməkdaşları döyüşlərdə yaralanan hərbçilərə kömək məqsədi ilə öz təşəbbüsləri ilə vəsait toplayaraq tibbi ləvazimatlar da alıb. Ləvazimatlar Müdafiə Nazirliyinin Tibb Xidmətinə təhvil verilib.

AMADA kollektivi döyüşlərdə yaralanan hərbçilərimizə şəfa diləyir, şəhid olan hərbçilərimizin ailələrinə və yaxınlarına başsağlığı verir.

## Azərbaycan Voleybol Federasiyası Ordumuza dəstək nümayiş etdirib

***Bir neçə gündür ki, şanlı ordumuz düşmən tapdağı altında olan torpaqlarımızın bir qismini azad edərək, xalqımıza əsl qələbə sevinci bəxş etməyə davam edir. Bu səbəbdən bir çox idman qurumları ordumuza dəstək nümayiş etdirir. Hərbçilərimizə dəstək olmaq və daha da ruhlandırmaq üçün Azərbaycan Voleybol Federasiyası da aksiyaya qoşulub. Milli komandamızın üzvlərinin və məşqçilərin iştirakı ilə keçirilən dəstək aksiyasında "Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!" şüarı səsləndirilib.***

***"Olimpiya dünyası" qəzetinə fikirlərini bildirən yığma komandamızın üzvləri və məşqçilər ordumuzun bu haqq mübarizəsində zəfər çalacağına əminliklərini ifadə etdilər.***

***Qeyd edək ki, "Azərreyl" klubunun kapitanı Cavid Əzimov könüllü şəkildə ordu sıralarına qoşulub.***

### "Torpaqlarımız uğrunda döyüşməyə və canımı verməyə hər an hazıram"

***Fərid Cəlalov (Kişilərdən ibarət milli komandanın və "Murov" klubunun baş məşqçisi):***

- Döyüşlərin bir müddətdir başlamasına baxmayaraq, şanlı ordumuz artıq xeyli ərazini düşməndən azad edib. Qarabağ əzəli Azərbaycan torpağıdır və bu torpaqlar işğal olunan gündən hər bir azərbaycanlının ürəyində bir yara olub. Ürəyimizdəki bu yaranı sağaltmağın vaxtı gəlib çatıb. Torpaqlarımız uğrunda döyüşməyə və canımı verməyə hər an hazıram. Cəsarətsiz düşmən güclü Azərbaycan əsgərinin qarşısında dayana bilməz. Ümid edirəm ki, qısa müddətdə onlar ordumuza təslim olacaqlar. Hər bir halda əminəm ki, xalqımız tezliklə dədə-baba torpaqlarına qovuşacaq. Bir sözlə, şanlı ordumuzun haqq mübarizəsində qələbə qazanacağına inanıram.

### "Hər kəs bilməlidir ki, Qarabağ bizimdir və bizim olacaq"

***Famil Ağayev (Qadınlardan ibarət milli komandanın məşqçisi, "Azərreyl" klubunun baş məşqçisi):***

- Azərbaycan Voleybol Federasiyası olaraq, hər zaman əsgərlərimizin yanındayıq. Ali Baş Komandanımızın veridiyi qərarları dəstəkləyirik və hər zaman dayaq olmağa hazırıq. Azərbaycanın əzəli torpaqlarını işğaldan azad etmək uğrunda şəhid olan əsgərlərimizin valideynlərinə, yaxınlarına başsağlığı verirəm. Döyüşlərdə yaralanan əsgərlərimizə isə Allah tezliklə şəfa versin. Əminəm ki, hansı yol ilə olursa-olsun, torpaqlarımız düşməndən təmizlənəcək və vətəndaşlarımız doğma yurduna qayıdacaqlar. Hər kəs bilməlidir ki, Qarabağ bizimdir və bizim olacaq. Mən də bir Azərbaycan vətəndaşı kimi, könüllü şəkildə ordu sıralarına qoşulmaq üçün qeydiyyatdan keçmişəm, döyüşmək üçün öz növbəmi gözləyirəm. Şanlı ordumuzun bu mübarizədən qalib ayrılacağına və xalqımızın illərdir yaşadığı torpaq həsrətinin bitəcəyinə əminəm. Şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Biz bugünki təhlükəsizliyimizi onlara borculuyuq.

### "Torpaqlarımızın Azərbaycanın igid əsgərləri tərəfindən azad edilməsi tarixi hadisədir"

***Nilufər Ağazadə (Azərbaycan milli komandasının üzvü):***

- Uzun illərdir ölkəmizin qədim torpaqlarının düşmən tapdağı altında olması hər birimiz üçün böyük narahatlıq doğurur. Lakin yaşadığımız son bir neçə gün xalqımız üçün həqiqətən də sevincli və qürurvericidir.



### "Xalqımızın illərdir yaşadığı torpaq həsrətinin bitəcəyinə əminəm"

***Pərviz Səmədov (Azərbaycan milli komandasının üzvü):***

- Hər bir Azərbaycan vətəndaşı kimi uzun illərdir düşmən tapdağı altında qalan torpağlarımızı azad etməyə hazırıq. Cənab Prezident İlham Əliyevin xalqa müraciətlərini izləyərkən daha da ruhlanır və torpağlarımızı tezliklə düşməndən azad edəcəyimizə əmin oluruq. Mən Torpaqlarımızın Azərbaycanın igid əsgərləri tərəfindən azad edilməsi tarixi hadisədir. Əminəm ki, yaxın zamanda işğal olunmuş bütün torpaqlarımıza qovuşacağıq. Mən də hər bir vətəndaş kimi Ali Baş Komandanımızın qərarlarına güvənirəm və hər zaman dəstək olmağa hazıram. Əminəm ki, işğal altında olan digər ərazilərimiz də tezliklə düşməndən azad olunacaq və ölkəmiz bu bəladan qurtulacaq. Qarabağ Azərbaycandır!

***Türkay Niftəliyeva***

## *İUGOEFM-in əməkdaşları Ordumuza dəstək oldular*

İxtisaslaşdırılmış Uşaq-Gənclər Olimpiya Ehtiyatları Futbol Məktəbi (İUGOEFM) ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizə aparan Azərbaycan Ordusuna dəstək məqsədilə Silahlı Qüvvələrə Yardım Fonduna vəsait köçürüb. İUGOEFM-in əməkdaşları bu məqsədlə Yardım Fonduna əmək haqlarının müəyyən bir hissəsini ianə ediblər. Bu xeyirxah və qürurverici missiyada iştirak etməkdən məmnun olduqlarını bildirən kollektivin üzvləri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin, müzəffər ordumuzun yanında olduqlarını vurğulayıblar.

İUGOEFM-in əməkdaşları həmçinin "Qarabağ Azərbaycandır!", "Qarabağ bizimdir, bizim olacaq!", "Haqq yolumuzda qələbə bizimdir!" şüarlarını səsləndirərək, işğalda qalan ərazilərimizin azadlığı uğrunda şanlı ordumuza ürəkdən uğurlar arzuladıqlarını bildiriblər.

## *Azərbaycan Universal Döyüş Federasiyası Ordumuza dəstək göstərib*

Azərbaycan Universal Döyüş Federasiyasının prezidenti Azər Həsənov və vitse-prezident Samir Əhmədov qurumun idarə heyəti adından cəbhə bölgəsində ordumuza dəstək məqsədilə bir sıra ərzaq, dərman ləvazimatları, geyim və s. kömək göstərərək hər zaman Azərbaycan əsgərinin yanında olacaqlarını bildiriblər.

Bu barədə Federasiyadan məlumat verilib. Bildirilib ki, eyni zamanda şəhid ailələrinin də qonağı olmuş Federasiya rəsmiləri onlara kömək etməyə söz veriblər. "Qarabağ Azərbaycandır!" şüarı altında hərəkata qoşulmaqla Azərbaycan Universal Döyüş Federasiyasının 20-dən çox idmançısı cəbhə xəttində döyüşür. Federasiyanın digər üzvləri də Ali Baş Komandan İlham Əliyevin əmrinə hazır olduğunu bildirirlər.

## *Millimiz UEFA Millətlər Liqasında üçüncü oyununu keçirib*

Futbol üzrə Azərbaycan milli komandası UEFA Millətlər Liqasının 2020/2021-ci il mövsümündə üçüncü oyununu keçirib. Millimiz Podqoritsa şəhər stadionunda Monteneqro yığmasının qonağı olub. İspaniyadan olan hakimlər briqadasının idarə etdiyi oyunda Monteneqro millisi 2:0 hesabı ilə qalib gəlib. Rəqibin heyətində Stevan Yovetiç və İqor İvanoviç fərqləniblər.

Xatırladaq ki, ilk turda millimiz Bakıda Lüksemburqa 1:2 hesabı ilə uduzub. Daha sonra Nikosiyada Kipri 1:0 hesabı ilə məğlub edib. Qrupun digər matçında Lüksemburq komandası Kipr millisini 2:0 hesabı ilə üstələyib. Hesabında 9 xal olan Monteneqro yığması qrupa liderlik edir. Lüksemburq 6 xalla ikinci, Azərbaycan isə 3 xalla üçüncü pillədə yer alıb. Hesabında xal olmayan Kipr isə qrupda sonuncudur.

Azərbaycan Voleybol Federasiyasının kollektivi kişilərdən ibarət milli komandanın və "Azərneft" klubunun keçmiş baş məşqçisi,

**Sahib Əliyevin**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19